XALQ DÖVLƏT ÜÇÜN YOX, DÖVLƏT XALQ ÜÇÜN OLMALIDIR...



# BİNƏQƏDİ

Xocalı soyqırımından 24 il ötür



№04 (141) | 26 fevral 2016

İCTİMAİ-SİYASİ QƏZET

Qiymәti: 40 qәpik

## Türkiyə Respublikasının xarici işlər naziri Azərbaycanda olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 18-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib. Görüş zamanı fevralın 17-də Ankarada törədilmiş terror aktı nəticəsində insanların həlak olması ilə bağlı Mövlud Çavuşoğluna və türk xalqına başsağlığı verən dövlətimizin başçısı bu terrorun Azərbaycanı da sarsıtdığını vurğulayaraq hadisənin ölkəmizdə qətiyyətlə pislənildiyini və qınanıldığını deyib. Prezident İlham Əliyev həmişəki kimi, bu ağır günlərdə də Azərbaycan xalqının türk xalqının yanında olduğunu qeyd edib.

Prezident İlham Əliyev Türkiyə Prezidenti üçün münasib olan bir vaxtda Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının ölkəmizdə keçiriləcəyi ilə bağlı razılaşdıqlarını da qeyd edib. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da genişləndirilməsində Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının əhəmiyyətindən danışan dövlətimizin başçısı bunu birliyimizin ifadəsi kimi dəyərləndirib. Şuranın iclasının gündəliyinin geniş olduğunu və burada bir çox məsələlərin müzakirə ediləcəyini deyən dövlətimizin başçısı iclasın yaxın vaxtlarda keçiriləcəyinə əminliyini ifadə edib.

Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu Ankarada törədilmiş terror aktı nəticəsində insanların həlak olması ilə bağlı verdiyi başsağlığına, qardaş Azərbaycan xalqının və şəxsən Prezident İlham Əliyevin hər zaman olduğu kimi, bu ağır günlərdə də Türkiyənin və türk xalqının yanında olmasına görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Terrorun bütün formalarına qarşı mübarizənin vacibliyini vurğulayan Mövlud Çavuşoğlu bu istiqamətdə bundan sonra da mübarizənin davam etdiriləcəyini qeyd edib. O, Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının növbəti iclasının yaxın vaxtlarda gerçəkləşəcəyinə və dövlət başçılarının liderliyi ilə ölkələrimiz arasında münasibətlərin daha da irəliyə aparılacağına əminliyini ifadə edib.

Mövlud Çavuşoğlu son zamanlar Azərbaycanda iqtisadi, o cümlədən ölkə həyatının bütün sahələrinin inkişafı ilə bağlı qəbul olunan qərarların Türkiyədə rəğbətlə qarşılandığını deyib və qardaş Azərbaycanın gələcəyi ilə bağlı Prezident İlham Əliyevin liderliyi ilə görülən bütün işlərdə uğurlar arzulayıb.

# Azərbaycan Prezidenti İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfəri



Fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasına rəsmi səfərə gəlib. Azərbaycanın və İranın dövlət bayraqlarının dalğalandığı Tehranın «Mehrabad» hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Azərbaycan Prezidentini İranın yüksək vəzifəli dövlət və hökumət rəsmiləri qarşılayıblar.

Prezident İlham Əliyev süvari dəstəsinin müşayiəti ilə «Sədabad» sarayına gəlib. İran İslam Respublikasının Prezidenti Həsən Ruhani dövlətimizin başçısını qarşılayıb. Qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin təkbətək görüşü keçirilib. Daha sonra dövlət başçılarının geniş tərkibdə danışıqları olub. Prezident Həsən Ruhani bildirib ki, dövlətimizin başçısı İlham Əliyevin İrana rəsmi səfəri çox böyük əhəmiyyət daşıyır və ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafına mühüm töhfə verəcək.

Prezident İlham Əliyev əlaqələrimizin böyük tarixi olduğunu və möhkəm təməllər üzərində qurulduğunu bildirib. İrana qarşı tətbiq olunan sanksiyaların ləğv edilməsi münasibətilə İran Prezidentini və xalqını təbrik edən dövlətimizin başçısı Azərbaycanın və İranın mövqelərində bir çox məqamların üst-üstə düşdüyünü vurğulayıb, regionda yaşanan gərginliyə baxmayaraq, hər iki ölkənin sabitlik nümunəsi olduğunu xatırladıb.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Həsən Ruhaninin iştirakı ilə «Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və təsirinin azaldılması sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında gömrük məsələlərində qarşılıqlı inzibati yardım haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında baytarlıq və heyvan sağlamlığı sahəsində əməkdaşlıq haqqında Saziş», «Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında elektrik enerjisinin satışı haqqında Çərçivə Sazişi», «Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Azərbaycan və İran dəmir yollarının əlaqələndirilməsi haqqında Çərçivə Sazişi», «Azərbaycan Dəmir Yolları» QSC ilə İran İslam Respublikasının Dəmir Yolları arasında Azərbaycan-İran dövlət sərhədində Astara çayı üzərində dəmir yolu körpüsünün tikintisi haqqında Müqavilə», «Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə İran İslam Respublikasının Qadın və Ailə Məsələləri üzrə Vitse-Prezidentliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İran İslam Respublikasının Səhiyyə və Tibbi Təhsil Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu», «Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə İran Milli Neft Şirkəti arasında Anlaşma Memorandumu» və «Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Qədir İnvestisiya Şirkəti arasında Anlaşma Memorandumu» imzalanıb.

Sonra hər iki dövlət başçısı mətbuata bəyanatlarla çıxış ediblər.

Ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirən Azərbaycan Prezidenti hər iki tərəfin bir-birini beynəlxalq təşkilatlarda dəstəklədiyini, beynəlxalq terrorizmə qarşı mübarizə aparmaq üçün birgə fəaliyyəti genişləndirmək barədə razılaşma əldə edildiyini xatırladıb.

İran İslam Respublikasının Prezidenti Həsən Ruhani bəyanatında bildirib ki, İran və Azərbaycan xalqı iki bədəndə bir ruhdur. Bizi müştərək tarix, mədəniyyət, məzhəb və din birləşdirir. H.Ruhani qeyd edib ki, İran və Azərbaycan regionda sabitlik və təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşlıqda maraqlıdır.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Ali Rəhbəri Seyid Əli Xamenei ilə görüşüb. Görüşdə tarixi, dini, mədəni köklərlə bağlı olan ölkələrimiz və xalqlarımız arasında əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Bununla da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İran İslam Respublikasına rəsmi səfəri başa çatıb.

XOCALI SƏH. 3



YAP Binəqədi təşkilatında anım mərasimi keçirildi

GÖRÜŞ SƏH. 4



8-ci mikrorayon sakinləri ilə səyyar görüş keçirilmişdir

GƏNCLİK SƏH. 6



Prezident mükafatına layiq görülən binəqədili gənclər

# Dövlətimizin başçısı Gəncədə bir sıra obyektlərin açılışında iştirak edib




Prezident İlham Əliyev fevralın 17-də Gəncəyə səfəri çərçivəsində ümummilli lider Heydər Əliyevin şəhər mərkəzində ucaldılan abidəsini ziyarət edib. Sonra dövlətimizin başçısı «İmamzadə» dini mədəniyyət abidəsinin yenidənqurma və əsaslı bərpadan sonra açılış mərasiminə qatılıb. İctimaiyyətin nümayəndələri və din xadimləri ilə görüşən Prezident İlham Əliyev mərasimdə nitq söyləyib. Bildirib ki, «İmamzadə» abidəsi bizim ümumxalq sərvətimizdir, bütün müsəlman aləminin qiymətli, dəyərli abidəsidir. Dövlətimizin başçısı bildirib ki, Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, yenidən tikilir. Ölkəmizdə dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir. Azərbaycanda nümunəvi tolerantlıq mühitinin mövcudluğunu deyən dövlətimizin başçısı bu məqsədlə ölkəmizdə müxtəlif tədbirlərin keçirildiyini, İslam Əməkdaşlıq Təşkilatının, ISESCO-nun xətti ilə təşkil olunan onlarla tədbirin müsəlman aləmində, müsəlman aləminin bütün seqmentlərində böyük rəğbətlə qarşılandığını xatırladıb.

Mərasimdə çıxış edən din xadimləri Azərbaycanda dövlət-din münasibətlərinin, dinlərarası dialoq, tolerantlıq, multikulturalizmin nümunəsini yüksək dəyərləndiriblər.

Gəncədə Abbas Səhhət adına 1 nömrəli şəhər xəstəxanasında aparılan əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyev sonra Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbin binasının açılışında iştirak edib. «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyinin balansında olan 240 yerlik körpələr evi-uşaq bağçasının əsaslı təmirdən sonra açılış mərasiminə qatılan dövlətimizin başçısı sonra «Gəncə Avtomobil Zavodu» İstehsalat Birliyinin istehsal sahələri ilə tanış olub.

Prezident İlham Əliyev səfər çərçivəsində «Gəncə - 2016-cı il Avropa Gənclər paytaxtı» parkında yaradılan şəraitlə tanış olub, Gəncədə «Nizami» yarımstansiyasının açılışında iştirak edib, həmçinin Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanış olub, Azərbaycan Dövlət Aqrar Universitetinin tələbə yataqxanasının açılışında iştirak edib.

Gəncədə hərbi qulluqçular üçün inşa edilən şəhərciyin açılışında iştirak edən Azərbaycan Prezidenti yaradılmış şəraitlə bağlı məlumat verilib. Bildirilib ki, yaşayış kompleksi 14 çoxmənzilli binadan ibarətdir. Kompleks şəhərin Yeni Gəncə yaşayış massivində 2-ci mikrorayonda yaradılıb.

# Ötən ilin nəticələri və qarşıda duran vəzifələr müzakirə olunub

## Fevralın 11-də Binəqədi Rayon İcra Hakimiyyətində 2015-ci ilin yekunları ilə bağlı hesabat yığıncağı keçirilib

**Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul əməkdaşı Tağı Tağıyev, millət vəkilləri Azay Quliyev və Kamaləddin Qafarov, icra hakimiyyəti başçısının müavinləri, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, RİH başçısı Aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının, icra strukturlarının rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.**



Yığıncaq iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binası qarşısında ucaldılmış abidəsi önünə gül dəstələri düzərək dahi şəxsiyyətin ruhuna dərin ehtiramlarını bildiriblər. Sonra qonaqlar icra hakimiyyətinin akt zalının foyesində rayonda fəaliyyət göstərən sahibkarların istehsal etdiyi məsulların sərgisi ilə tanış olublar.

Tədbir Prezident İlham Əliyevin ötən il Binəqədi rayonuna etdiyi səfərləri, rayonda həyata keçirilən abadlıq-quruculuq işlərini, əldə olunan nailiyyətləri, o cümlədən Binəqədi Rayon İcra Hakimiyyətinin illik fəaliyyətini əks etdirən filmin nümayişi ilə başlanıb. Sonra Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov 2015-ci il ərzində rayonda görülmüş işlər haqqında hesabat məruzəsi ilə çıxış edib. Məruzədə bildirilib ki, müstəqil Azərbaycanın bölgədə və dünyada layiqli yerini tapması, regional liderliyini təmin etməsi, iqtisadi sahədə keçid dövrünü uğurla başa vurması ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi və bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilən uzaqgörən siyasətin nəticəsidir. İcra hakimiyyətinin başçısı vurğulayıb ki, 2015-ci ili dünya dövlətlərinin əksəriyyəti sosial-iqtisadi böhran içərisində başa vurub. Ancaq neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi səbəbindən Azərbaycanda manatın devalvasiya prosesi baş versə də, iqtisadiyyatımızda ümumi daxili məhsulun artım səviyyəsi 1,1 faiz təşkil edib. ÜDM-də qeyri-neft sektorunun çəkisi 2014-cü illə müqayisədə 6,5, sənaye istehsalı 2,4, qeyri-neft sənayesi isə 8,4 faiz artıb. Ölkəmizin sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının davamlı və planlı şəkildə icrası yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı və çoxsahəli infrastruktur layihələrinin həyata keçirilməsində müstəsna rol oynayıb. Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, Azərbaycan dünyada gedən geosiyasi proseslər, maliyyə tənəzzülünün dərinləşdiyi bir dövrdə yeni qlobal iqtisadi və siyasi çağırışlara adekvat olaraq islahatları davam etdirir. Dünya bazarında neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi nəticəsində Azərbaycanın milli valyutasının devalvasiyası qaçılmaz olub: "Dövlət bununla əlaqədar ölkədə yaranmış vəziyyətdən minimum itkilərlə çıxmaq üçün inzibati, iqtisadi və sosial istiqamətdə ardıcıl tədbirlər həyata keçirir. Prezident İlham Əliyev indiki şəraitdə ilk növbədə insanların sosial müdafiəsinin həllini ön plana çəkir. Son günlərdə dövlət başçısının bir sıra kateqoriyalardan olan vətəndaşların əməkhaqlarının, pensiyalarının və müavinətlərinin artırılması barədə imzaladığı sərəncamlar bunun əyani təsdiqidir. Bu barədə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlət başçısı demişdir: "Keçən il bütün sosial proqramlar icra edilmişdir. Heç bir ixtisar olmamışdır. İnsanlara daha da böyük məbləğdə dövlət sosial yardımı verilmişdir. Bu gün 112 min ailə, təqribən 500 minə yaxın insan hər ay dövlətdən orta hesabla 152 manat yardım alır və il ərzində verilən bu məbləğ 7% artmışdır". Bununla belə, yaranmış iqtisadi və maliyyə vəziyyətində də dövlətin siyasətinin mərkəzində məhz Azərbaycan Respublikasının vətəndaşı dayanır. Nazirlər Kabinetinin iclasında Prezident İlham Əliyev aidiyyəti qurumlara istehlak qiymətlərinə ciddi nəzarət etməyi, süni şəkildə qiymət qaldıranlara qarşı barışmaz olmağı tapşırıb. Bütün bunlar əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılmış önəmli addımlardır. Onu da vurğulamaq lazımdır ki, neft ölkələrinin, yəni bu gün neftin qiymətinin aşağı düşməsindən əziyyət



çəkən dövlətlərin böyük əksəriyyətində maaşların və pensiyaların artırılması müşahidə edilməyib. Azərbaycanda isə təkcə əməkhaqlarının artırılması üçün dövlət büdcəsindən 100 milyonlarla manat vəsait xərclənəcək. İl ərzində bu məsələyə yenidən baxılacağı da istisna edilmir".

Çıxışını davam etdirən natiq bildirib ki, bu il yanvarın 18-də Prezident İlham Əliyev iqtisadi və sosial məsələlərin həlli ilə bağlı keçirilən müşavirədə sözügedən təşəbbüslərin davamlı olacağını bir daha qeyd edib: "Dövlət başçısı bildirib ki, bu il bütün sosial proqramlar icra ediləcək. Bu məsələ ilə bağlı heç kimin şübhəsi olmasın. İnsanların sosial müdafiəsi ilə bağlı olan əlavə tədbirlər də görülməlidir. Cənab Prezidentin göstərişlərinə əsasən, qarşıdakı bir il – il yarım ərzində Azərbaycanın bütün regionlarında kənd təsərrüfatı, emal və sənaye sahələrini əhatə edən 150-yə yaxın layihənin icrası nəzərdə tutulur. Bunun nəticəsində isə 15 minədək yeni iş yerinin açılması planlaşdırılır. Azərbaycanın milli brendlərinin yaradılması və qeyri-neft ixracının stimullaşdırılması məqsədilə sahibkarlara 1,5 milyard manat məbləğində kreditlərin verilməsi nəzərdə tutulub. 2016-cı ildə biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, sahibkarların maarifləndirilməsi və onların işgüzar əlaqələrinin inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində ölkə iqtisadiyyatında özəl sektorun payı davamlı olaraq artacaqdır".

Məruzədə qeyd edilib ki, Binəqədi rayonunun sosial-iqtisadi həyatında 2015-ci il ərzində görülən işlərin yekunu olaraq, bir sıra uğurlu nəticələr əldə olunub. Ötən ilin yanvar-dekabr aylarında 198 milyon 990 min manatlıq sənaye məhsulu istehsal edilib və xidmətlər göstərilib. İl ərzində sənaye müəssisələrində 6448 nəfər işləyib, müəssisələrdə orta aylıq əməkhaqqı 459,2 manat təşkil edib. Tikinti sektorunda bütün maliyyə mənbələri hesabına 202326,1 min manat əsas fondlar istifadəyə verilib. Hesabat dövründə iqtisadi və sosial sahələrin inkişafı üçün maliyyə mənbələrindən əsas kapitala 275 milyon 260 min manat məbləğində investisiya yönəldilib ki, onlardan da 232 milyon 548 min manatı tikinti-quraşdırma işlərinə sərf edilib. Tikintidə işçilərin orta siyahı sayı 4846 nəfər olub və orta aylıq əməkhaqqı 444,4 manat təşkil edib. Nəqliyyat sektorunda əvvəlki ilin




müvafiq dövrünə nisbətən 24,1% artım müşahidə olunub. Ötən dövrdə bu sahədə 5966 işçi çalışıb, orta aylıq əməkhaqqı 360,9 manat təşkil edib. Rabitə müəssisələri tərəfindən Binəqədi rayonu üzrə ümumilikdə 16 milyon 251 min manatlıq xidmət göstərilib və bu sahədə çalışan 624 nəfərin orta aylıq əməkhaqqı 396,2 manat olub.

Qeyd olunub ki, son illərdə rayonun istehlak bazarında da irəliləyişlər əldə olunub. Hesabat dövründə istehlak bazarı dinamik inkişaf etməkdə davam edib və pərakəndə ticarət şəbəkəsindən rayon əhalisinə 850309,0 min manatlıq istehlak malları satılıb. Əhaliyə göstərilən pullu xidmətlərin həcmi 418 milyon 250 min manat təşkil edib. Hesabat ilində orta aylıq nominal əməkhaqqı 408,6 manata çatıb ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 99,5% təşkil edib. Ötən dövr ərzində Binəqədi rayonu üzrə işçilərin orta sayı 40950 nəfər olub. Ötən il rayonda 4513 yeni iş yeri açılıb ki, bunların da hamısı daimi iş yerləridir.

Əhalinin sosial təminatının yaxşılaşdırılması məqsədilə il ərzində 3287 ailəyə və ya 12861 nəfərə ünvanlı dövlət sosial yardımı təyin edilib. İl ərzində 34638 pensiyaçıya xidmət göstərilib. Ödənilən pensiya məbləği 84,8 milyon manat olub ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,5 milyon manat çoxdur. Rayon üzrə orta pensiya məbləği artaraq 212,0 manat təşkil edib.

Əhalinin ərzaq təhlükəsizliyinin qorunması məqsədilə küçə və yol kənarlarında mənşəyi məlum olmayan ərzaq məhsullarının satışının qarşısının alınması üçün Binəqədi Rayon İcra Hakimiyyəti Gigiyena və Epidemiologiya Mərkəzi və aidiyyəti strukturların əməkdaşları ilə mütəmadi reydlər təşkil edib və qanunsuz pərakəndə ticarət fəaliyyəti, eyni zamanda gigiyenik normalara cavab verməyən iaşə xidmətlərinin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilib. Aparılmış monitorinqlər zamanı aşkar olunmuş sanitar-gigiyenik nöqsanlar barəsdə aidiyyəti orqanlara rəsmi məlumatlar göndərilib.

Məruzədə vurğulanıb ki, hesabat ilində Binəqədi rayonunda daimi qeydiyyatda olan əhalinin sayı 260 min 700 nəfər təşkil edib. İl ərzində rayonda 4428 nəfərin doğumu və 1450 nəfərin ölümü qeydə alınıb, təbii artım isə 2978 nəfər olub. Rayonda 2019 nikah və 546 boşanma halları qeydə alınıb. 2016-cı ilin yanvar ayının 1-i tarixinədək Binəqədi rayon ərazisində respublikanın işğal olunmuş bölgələrindən 45.760 nəfər məcburi köçkün – 11.091 ailə faktiki məskunlaşıb. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Binəqədi rayon sektoruna müraciət etmiş 1213 nəfərdən 1113-nə məcburi köçkün statusu verilib. Yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə məcburi köçkünlərin məskunlaşdıqları Dərnəgül yaşayış massivində ana su xətti təmir edilib, daimi elektrik enerjisi ilə təmin olunmaq məqsədilə binalar yeni naqil və ayırıcılarla təchiz olunub. 9-cu mikrorayon ərazisində inşa edilən "Azərbaycan-Türkiyə" dostluq məscidinin tikintisi ilə əlaqədar dövlət tərəfindən üçmərtəbəli yarımçıq binadan 42 ailə Müşfiqabad qəsəbəsinə, 79 ailə Mehdiabad qəsəbəsində tikilmiş binalara köçürülüb.

Ölkə başçısının təsdiq etdiyi 17 yanvar 2014-cü il tarixli "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda Binəqədi rayonuna aid 40 tədbir nəzərdə tutulub. İl ərzində Dövlət Proqramında nəzərdə tutulmuş Tədbirlər Planına uyğun olaraq, ayrı-ayrı təhsil müəssisələrinin əsaslı surətdə təmiri və yenidən qurulması işləri ardıcıl olaraq həyata keçirilib. Dövlət Proqramı çərçivəsində Stend Atıcılığı üzrə İdman Kompleksinin sökülərək yenidən qurulması və dağ velosipedi yarışları üçün veloparkın tikintisi 2015-ci ilin mart ayında yekunlaşıb, may ayında Respublika Əlillərin Bərpa Mərkəzi əsaslı təmir olunaraq yeni inventarlarla təchiz olunub, 283 saylı orta məktəbin və 238 saylı məktəbəqədər təlim-tərbiyə müəssisəsinin təmir işləri uğurla başa çatıb. Bundan əlavə, 2014-2016-cı illərə dair Dövlət Proqramının mədəniyyət obyektlərinin əsaslı təmir və tikintisi bəndinin icrası ilə əlaqədar olaraq, Xocəsən qəsəbəsi ərazisində yerləşən yeni Mədəniyyət evinin tikintisinə maliyyə vəsaiti ayrılıb və təmir-tikinti işlərinə başlanılıb.

Azərbaycan Respublikası Prezidentinin tapşırıq və tövsiyələrinə uyğun olaraq, son illərdə Binəqədi rayonu ərazisində abadlıq-quruculuq istiqamətində görülən işlər rayon sakinləri tərəfindən rəğbətlə qarşılanıb, əhalinin kommunal və digər sosial sahələrdə mövcud olan bir sıra problemləri müsbət həllini tapıb. Belə ki, rayon ərazisində mərhələli və planlı şəkildə həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri çərçivəsində rayonun qəsəbələrarası və məhəllədaxili yollarında, mərkəzi prospektlərdə, yaşayış binalarının fasad və dam örtüklərində, park və meydanlarda, həmçinin digər infrastruktur sahələrində yenidənqurma və əsaslı təmir işləri aparılıb.

Məruzədə bildirilib ki, ölkə başçısının tapşırığına uyğun olaraq, hesabat ilində Binəqədi Rayon İcra Hakimiyyəti başçısının mütəmadi olaraq vətəndaşlarla birbaşa, o cümlədən yerlərdə səyyar qəbulları təşkil edilib, sakinlərin müraciətləri, irad və təklifləri diqqətlə öyrənilərək müvafiq Tədbirlər Planı təsdiq olunub və aidiyyəti qurumlara göndərilərək icrası nəzarətdə saxlanılıb. İl ərzində icra hakimiyyəti başçısının ümumilikdə 28 görüşü, o cümlədən 24 görüş və 4 səyyar qəbul – "Açıq qapı" vətəndaş forumu keçirilib.

Ötən ilin ən mühüm siyasi hadisələrindən biri olan, Azərbaycanın mütərəqqi Seçki Məcəlləsinin müddəalarına uyğun qaydada keçirilən və müvəffəqiyyətlə başa çatan parlament seçkiləri ölkəmizdə növbəti dəfə demokratiyanın təntənəsinə çevrilib. Noyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçirilən seçkilərdə rayon üzrə seçicilərin sayı 149126 nəfər olub ki, bunlardan da 68124 nəfəri səsvermədə iştirak edib. Ölkənin hər yerində olduğu kimi, Binəqədi rayonunda da seçkilər böyük ruh yüksəkliyi və seçicilərin aktivliyi ilə diqqəti cəlb edib.

Ötən il Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına vətəndaşlardan, ümumilikdə, 3922 müraciət daxil olub ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 797 vahid azdır. Müraciətlərdən 3023-ü ərizə, 896-sı şikayət, 3-ü təklif olub. Daxil olmuş şikayətlər 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 210 vahid azdır və bunun da əsas səbəbi rayon sakinlərinin illərdən bəri yığılıb qalmış sosial problemlərinin həlli istiqamətində aparılan təxirəsalınmaz tədbirlərdir. Hesabat ilində Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında 4871 vətəndaş, RİH başçısı tərəfindən 296 vətəndaş qəbul edilib.

Ötən il milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanması, inkişaf və təbliğ etdirilməsi, tarixi hadisələrin, əlamətdar günlərin qeyd edilməsi, rayonda fəaliyyət göstərən ictimai təşkilatlar, təhsil, səhiyyə və mədəniyyət müəssisələri, siyasi partiyalar və dini qurumlarla qarşılıqlı münasibətlərin qurulması, onların fəaliyyətinin koordinasiyası prioritet istiqamətlərdən olub.

Sakinlərin Müraciət Xidməti – 1646-ya daxil olan müraciətlərin statistikası bu xidmətdən istifadə edən vətəndaşların sayının günü-gündən artdığını göstərir. İl ərzində statistik rəqəmləri əks etdirən göstəricilər təhlil edilərkən müəyyən olunub ki, əhali bu xidmətə hələ də böyük inam göstərir.

Məruzədə o da qeyd olunub ki, hesabat dövründə rayonda əldə edilən sürətli sosial-iqtisadi inkişafa baxmayaraq, öz həllini gözləyən bir sıra işlər mövcuddur:

– çoxmənzilli yaşayış binalarında yeni idarəetmə metod və formalarının tətbiqini sürətləndirmək;

– çoxmənzilli yaşayış binalarında lift təsərrüfatının cari və əsaslı təmiri, yeniləşdirilməsi və müasirləşdirilməsi işlərinin davam etdirilməsi;

– Dərnəgül yaşayış sahəsində yerləşən qəzalı yataqxana binalarında məskunlaşmış 10.000-ə yaxın məcburi köçkünün hissə-hissə köçürülməsi;

– rayonun Biləcəri, Binəqədi, Rəsulzadə, Xocəsən və 28 May qəsəbələrində məhəllədaxili yolların asfaltlanması və işıqlandırılması işlərinin davam etdirilməsi;

– Xocəsən qəsəbəsi, Aşağı və Yuxarı Sulutəpə yaşayış massivlərində subasma hallarının qarşısını almaq məqsədilə ümumi kanalizasiya şəbəkəsinin qurulması və s.

Məruzədə vurğulanıb ki, ötən illər ərzində rayonun 7, 8, 9-cu mikrorayonlarında plansız və xaotik şəkildə çoxsaylı fərdi minik maşınları üçün qarajlar inşa edilib və ya quraşdırılıb. Son illər əhalinin maddi rifahının yaxşılaşdırılması nəticəsində minik maşınlarının sayı kəskin şəkildə çoxalıb və məhəllələrdə həmin maşınların yerləşdirilməsində problemlər yaranıb. Problemin həlli ilə əlaqədar adı çəkilən mikrorayonlarda yeraltı avtomobil dayanacaqlarının inşa edilməsinə ehtiyac var.

*Ardı səh. 3-də*

BİNƏQƏDİ

Təsisçi:
**Binəqədi Rayon İcra Hakimiyyəti**

Baş redaktor:
**Rüfət Mərdanov**

Ünvan:
**AZ1130, Bakı, Binəqədi rayonu, Nizami Nərimanov küçəsi, 75**

Tel.: **(012) 563 57 28**

E-mail: **bineqedi-qazet@mail.ru**

Qeydiyyat nömrəsi: **55** | VÖEN: **1002874841**

"Binəqədi" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Tiraj: **2000** | Qiyməti: **40 qəpik**

# YAP Binəqədi təşkilatında anım mərasimi keçirildi



Bu gün Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının qərargahında Xocalı soyqırımının 24-cü ildönümü ilə əlaqədar anım mərasimi keçirib. Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov, Binqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, millət vəkilləri Eldar İbrahimov, Şəmsəddin Hacıyev və Siyavuş Novruzov mərasimdə iştirak ediblər.

Tədbir iştirakçıları Xocalı soyqırımı zamanı qətlə yetirilmiş insanların xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Görüşdə çıxış edən Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bugünlər Azərbaycan xalqının 24 il əvvəl baş verən Xocalı soyqırımında qətlə yetirilən insanların xatirəsini dərin ehtiramla yad etdiyini, bu məqsədlə ölkəmizdə və dünyada tədbirlərin keçirildiyini bildirib. Onun fikrincə, bütün bunlar soyqırımın unudulmaması üçün atılan addımlardan biridir, eləcə də, Xocalı faciəsinin dünyaya təqdim edilməsi məqsədi daşıyır.

"Şübhəsiz ki, Xocalı qətliamı tariximizdə üzləşdiyimiz ən böyük faciələrdən biridir. Yüzlərlə dinc insanın bu cür qətlə yetirilməsinə dünya tarixində nadir hallarda rast gəlmək olur. Həqiqətən, insanlığa böyük ləkə gətirən bu faciə uşaq, qadın, qoca qətli ilə yaddaşlarda yaşayır. Hər şeydən əvvəl, Xocalı faciəsi erməni separatçılarının və terrorçularının Dağlıq Qarabağın azərbaycanlılardan təmizlənməsi istiqamətində məkrli addımlarının nəticəsidir. Təəssüf ki, ermənilər çirkin niyyətlərini həyata keçirmək üçün ondan da qat-qat çirkin olan üsul seçdilər. Bu da bir şəhərin bütünlüklə yer üzərindən silinməsi, orda yaşayan bütün insanların xüsusi qəddarlıqla qətlə yetirilməsidir. Erməni separatçıları və terrorçuları Azərbaycan xalqına qarşı bu niyyətlərini təkbaşına həyata keçirə bilməzdilər. Onlara havadarları kömək edib, torpaqlarımızın işğalında da üçüncü qüvvənin rolu olub. Bunun da başlıca səbəbi Qafqazda nüfuz və mövqenin qorunmasıdır. Müəyyən xarici qüvvələr öz məqsədləri naminə bu hadisələrin baş verməsinə dəstək göstəriblər"-deyə, YAP Sədrinin müavini vurğulayıb.

Əli Əhmədov təəssüflə qeyd edib ki, dünya birliyi Xocalı faciəsinə layiqli hüquqi-siyasi qiymət verməyib. Bunun ikili standartların nəticəsi olduğunu deyən Əli Əhmədovun sözlərinə görə, ikili standartların olması, Xocalı soyqırımına bəzi ölkələrdə biganəlik azərbaycanlıları ruhdan salmamalıdır və bu faciəni dünyada tanıtmaq istiqamətində qüvvələrimizi daha ciddi və qətiyyətlə səfərbər etməliyik.



«Biz Xocalı soyqırımının dəhşətli nəticələrini geniş təbliğ etməklə bu faciəni milli düşüncənin bir elementi kimi gələcək nəsillərə çatdırmalıyıq. Əsas məqsədimiz odur ki, gələcək nəsillər bunu bilsin və tarixdən dərs alaraq Azərbaycana qarşı belə faciələr törətmək istəyənlərin qarşısını alsınlar. Dövlətimizin əsas məqsədi erməni separatçılarının və terrorçularının Xocalıda törətdikləri kütləvi qətl hadisəsini dünyaya azərbaycanlıların soyqırımı kimi tanıtmaqdan ibarətdir. İstər dövlət qurumları, istərsə də qeyri-hökumət təşkilatları və vətəndaşlarımız yorulmadan Xocalı soyqırımını dünyada tanıtmaq istiqamətində fəaliyyət göstərməlidirlər. Biz beynəlxalq aləmin Xocalı faciəsinə hüquqi-siyasi qiymət verməsinə nail olmalıyıq. Bu istiqamətdə bir sıra uğurlu addımlar atılıb, bir sıra dövlətlər, o cümlədən, ABŞ-ın bəzi ştatları Xocalı soyqırımını tanıyıblar. Hesab edirəm ki, bundan sonrakı səylərimiz də nəticəsiz qalmayacaqdır. Eyni zamanda, Azərbaycan cəmiyyəti və bütövlükdə xarici ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları da bu istiqamətdə səylərini artırmalıdır»- deyə, YAP Sədrinin müavini vurğulayıb.

YAP Gənclər Birliyinin böyük bir ordu olduğunu deyən Əli Əhmədov qeyd edib ki, partiyanın gəncləri soyqırımı həqiqətlərinin dünyaya çatdırılması istiqamətində öz töhfələrini verirlər. O, gənclərə bu prosesdə daha da fəal olmağı tövsiyə edib.

Baş nazirin müavini qeyd edib ki, dövlətimizin və xalqımızın qarşısında dayanan ən mühüm vəzifə torpaqlarımızın işğaldan azad olunmasıdır. Onun sözlərinə görə, ATƏT-in Minsk qrupu öz vasitəçilik missiyasını lazımi səviyyədə yerinə yetirmir. Ona görə də, Azərbaycan cəmiyyətinin həmsədrlərin fəaliyyətinə inamı əhəmiyyətli dərəcədə azalıb. Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməyə qadir olduğunu deyən Əli Əhmədov danışıqlar prosesinin nəticə verməyəcəyi təqdirdə Ordumuzun bu missiyanı yerinə yetirəcəyini diqqətə çatdırıb. O, qeyd edib ki, Prezident İlham Əliyevin siyasəti nəticəsində ordumuz xeyli güclənib, Azərbaycan inkişaf baxımından işğalçı Ermənistanı müqayisə olunmaz dərəcədə üstələyir.

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov və Binəqədi rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İskəndərov Xocalı soyqırımı ilə bağlı fikirlərini bildirib, gənclərə tövsiyələr veriblər.

# Vətəndaş müraciətləri diqqətlə araşdırılır



Fevralın 15-də Binəqədi Rayon İcra Hakimiyyətində vətəndaş müraciətlərinə baxılması ilə əlaqədar müşavirə keçirilib. Müşavirədə, həmçinin, Azərbaycan Respublikası Prezidentinin Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Süleyman İsmayılovun "Azərbaycan Prezidenti vətəndaşların müraciətlərinə daimi diqqət və qayğını prioritet məsələ hesab edir" başlıqlı məqaləsi ətrafında müzakirələr aparılıb.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, müavinlər, RİH başçısı Aparatının məsul işçiləri, rayonun hüquq-mühafizə orqanlarının, icra strukturlarının rəhbərləri, bələdiyyə sədrləri və qəsəbə üzrə nümayəndələr iştirak ediblər.

Müşavirədə giriş sözü ilə çıxış edən Xaləddin İsgəndərov ölkəmizdə aparılan iqtisadi inkişafdan, sahibkarlara dövlət tərəfindən göstərilən maddi və mənəvi yardımlardan söhbət açıb. Qeyd olunub ki, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar Azərbaycan dövlətinin iqtisadi gücünü daha da artıracaq, ölkəmizin davamlı inkişafı bundan sonra da bərqərar olacaq. RİH başçısı bildirib ki, ölkə vətəndaşlarının problemlərinin öyrənilməsində və həlli istiqamətində mühüm vasitə olan müraciətlərə baxılması dövlət başçısının daim diqqət yetirdiyi məsələlərdəndir: "Vətəndaş müraciətləri diqqətlə araşdırılır, öyrənilir və öz həllini mütləq tapır. Yəni Azəbaycan vətəndaşının bu və digər məsələlərlə bağlı müraciətləri cavabsız qalmır. Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının təqdim etdiyi hesabatdan görünür ki, il ərzində vətəndaşların dövlətimizin həyata keçirdiyi siyasətlə bağlı məmnunluq məktubları kifayət qədərdir. Binəqədi sakinləri də görülən işlərə biganə yanaşmırlar. Təbii ki, sakinlərimiz tərəfindən həll olunması gözlənilən məsələlər də mövcuddur və biz çalışırq ki, bütün problemlərin həllinə nail olaq. Sözsüz ki, iş olan yerdə nöqsanlar da qaçılmazdır. İl ərzində Binəqədi rayonunun sakinləri tərəfindən Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına 2 sahə üzrə şikayət xarakterli müraciət ünvanlanıb. Bu, hüquq-mühafizə orqanları və bələdiyyələrin işi ilə bağlı olub. Mən deməzdim ki, rayonumuzun hüquq-mühafizə orqanları öz işinin öhdəsindən layiqincə gələ bilmir. Qeyd etdiyim kimi, iş olan yerdə bəzi çatışmazlıqların mövcudluğu təbiidir. Binəqədi ərazi və əhali baxımından sıx bir rayondur. Bildiyiniz kimi, rayonumuzda qeydiyyatda olmayan, müvəqqəti yaşayan sakinlər kifayət qədərdir. Buna görə də hüquq-mühafizə orqanları bu məsələni tam nəzarət altında saxlamaq üçün öz fəaliyyətlərini daha da gücləndirməlidirlər. Bələdiyyələrin işi ilə bağlı şikayətə gəlincə, demək istərdim ki, bu sahədə də nöqsanların aradan qaldırılması bizim gündəlik planımıza daxildir. Bələdiyyələrin işinin nizama salınması, vətəndaşların bu sahə ilə bağlı narazılıqlarının birdəfəlik aradan qaldırılması üçün ciddi addımlar atılmalıdır və biz bu addımları atacağıq. Düşünürəm ki, Binəqədi bələdiyyələri öz işlərini sahmana salmağı bacaracaqlar və sakinlərlə qarşılıqlı problemləri tez bir zamanda köklü şəkildə həll edəcəklər".

İcra hakimiyyətinin başçısı qeyd edib ki, il ərzində rayon üzrə cəmi 2 sahədən şikayət xarakterli müraciətin ünvanlaması rayon rəhbərliyinin arxayınlaşması anlamına gələ bilməz. Bütün problemlərin həlli yolu qarşılıqlı münasibətdən, rəhbərliklə vətəndaşların birgə əməkdaşlığından asılıdr.

Sonra Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Elnur İmanov məruzə ilə çıxış edərək bildirib ki, vətəndaş müraciətlərinə həssas yanaşma və əhalini narahat edən problemlərin operativ həlli daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir.

Məruzəçi bildirib ki, Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına Binəqədi sakinləri tərəfindən də çoxsaylı minnətdarlıq məktubları daxil olub. Bununla yanaşı, rayon üzrə hüquq-mühafizə orqanlarının fəaliyyəti və bələdiyyələrin işi ilə bağlı şikayət və ərizələr də Administrasiyaya ünvanlanıb: "Ötən il Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatına polisin fəaliyyəti, istintaqın aparılması ilə bağlı 11, pasport qeydiyyatı və şəxsiyyət vəsiqəsinin verilməsi ilə əlaqədar isə 34 müraciət daxil olub. İl ərzində RİH başçısı Aparatına vətəndaşlardan, ümumilikdə, 3922 müraciət ünvanlanıb ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 797 vahid azdır. Daxil olmuş vətəndaş müraciətlərindən 3023-ü ərizə, 896-sı şikayət, 3-ü təklif xarakteri daşıyıb. Şikayətlər isə 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 210 vahid azdır. Azalmanın səbəbi isə rayon sakinlərinin illərdən bəri yığılıb qalmış sosial problemlərinin həlli istiqamətində aparılan təxirəsalınmaz tədbirlərdir. Ötən il Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında 4871 vətəndaş, RİH başçısı tərəfindən isə 296 vətəndaş qəbul edilib".

Çıxışda qeyd olunub ki, ötən müddət ərzində vətəndaşlar rayon icra hakimiyyətinə sosial müdafiə məsələləri, mənzil şəraitinin yaxşılaşdırılması, müalicəyə köməklik və başqa məsələlərlə bağlı çoxsaylı müraciətlər ünvanlayıblar: "M|üəyyən edilmiş təsnifat üzrə aparılan təhlillər göstərir ki, 2015-ci ildə vətəndaşlardan daxil olan sosial müdafiə, məişət, səhiyyə, tikinti, mənzil məsələləri barədə müraciətlər əvvəlki ilə nisbətən azalıb. Şikayətlər, əslində, vətəndaşın narahatlığı, bəzi yerlərdə onun bürokratiya və səhlənkarlıqla, laqeydliklə üzləşməsindən, yaxud qaldırdığı məsələnin həllinə nail ola bilməməsindən, habelə digər səbəblərdən irəli gəlir. Vətəndaşların bu narahatlığı, sözsüz ki, ilk növbədə, məmurları narahat etməlidir. Əhali ilə iş elə qurulmalıdır ki, onlar şikayət məktubu yazmağa məcbur olmasınlar". Bildirilib ki, Binəqədi Rayon İcra Hakimiyyətinin "Sakinlərin Müraciət Xidməti"nə 2015-ci il ərzində ümumilikdə 29703 müraciət daxil olub ki, bunlardan 7212-nə icra vərəqəsi açılıb. 2014-cü illə müqayisədə daxil olmuş müraciətlər ümumilikdə 6022 vahid azalıb. Xidmətə daxil olmuş minnətdarlıq müraciətlərinin sayı isə 299 olub.

Ölkəmizdə arxiv işinin təşkilinin daim diqqət mərkəzində saxlanıldığını deyən şöbə müdiri bildirib ki, Binəqədi rayonunda bu sahədə heç bir problem yoxdur. RİH başçısı Aparatında Sənədlərin Dövlət Arxivinə təhvil verilməsi təmin edilib, RİH başçısının inzibati ərazi dairələri üzrə nümayəndələrinə isə saxlama müddəti başa çatmış sənədlərin Dövlət Arxivinə təhvil verilməsi üçün müvafiq tapşırıq məktubu göndərilib. Həmçinin, Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının hazırladığı nümunəvi Nomenklatur siyahısına uyğun olaraq, Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatında və inzibati və sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində işlərin nomenklatur Siyahısı təsdiq edilib.

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasına Binəqədi rayonundan da bələdiyyələrlə bağlı şikayət məktublarının göndərildiyini deyən E.İmanov vurğulayıb ki, bələdiyyələr tərəfindən əvvəlki illərdə torpaqların sənədləşdirilməsi sahəsində yol verilən nöqsanlar, vətəndaşlar tərəfindən bələdiyyə büdcəsinin formalaşması və xərclərin idarə edilməsi barədə düzgün informasiyasının olmaması və bələdiyyə qulluqçularının etik davranış qaydalarına əməl etmələri sahəsində bir sıra problemlərin mövcudluğu bu sahədə şikayətlərin artmasına səbəb olan amillərdəndir: "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev daim vətəndaşların problemlərinin həll edilməsi, onların müraciətlərinin dinlənilməsi və bu yolda qarşıya çıxan maneələrin aradan qaldırılması sahəsində müvafiq tapşırıq və tövsiyələr verir, bir sıra qanunvericilik aktları imzalayır. "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apelyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarxili Fərmanı bu sahədə görülmüş işlərdən biri kimi vətəndaşlar tərəfindən də yüksək qiymətləndirilir".

Müşavirədə çıxış edən Binəqədi Rayon Polis İdarəsinin rəisi Namiq İsmayılov rəhbərlik etdiyi qurumun işi ilə bağlı Prezident Administrasiyasına göndərilən şikayət xarakterli müraciətlərdən təəssüfləndiyini bildirib. İdarə rəisi Binəqədi Rayon Polis İdarəsinə 2015-ci ildə ümumilikdə 12244 müraciətin daxil olduğunu diqqətə çatdırıb. Bunlardan 77%-i (9436) ərizə, 23%-i (2808) isə şikayət olub. Ümumilikdə rayonun polis orqanlarında 2733 vətəndaş qəbul edilib.

Daha sonra Rəsulzadə bələdiyyəsinin sədri Hümbət Hüseynov vətəndaş müraciətlərinə baxılması mövzusu ətrafında çıxış edib.

# Ötən ilin nəticələri və qarşıda duran vəzifələr müzakirə olunub

*Əvvəli səh. 2-də*

Hesabat məruzəsində bildirilib ki, Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında 2016-ci ildə iqtisadi inkişaf templərini təmin etmək, makroiqtisadi sabitliyə nail olmaq dövlətin qarşısında başlıca vəzifə kimi qoyulub. Dünyada gedən proseslərə, geosiyasi amillərə əsasən demək olar ki, 2016-cı ildə də qlobal iqtisadiyyatda iqtisadi tənəzüllərin davam edəcəyi ehtimalı böyükdür. Belə olan halda, Azərbaycanda daha çox daxili resurslar hesabına iqtisadi inkişaf templərini sürətləndirmək və düşünülmüş iqtisadi siyasət, struktur islahatları həyata keçirilməlidir. Bu il əsas prioritet sahələri hesab olunan sosial təminat və investisiyayönümlü infrastruktur layihələrinin icrası öz həllini tapmalıdır. Prezident İlham Əliyevin Nazirlər Kabinetinin iclasında qeyd etdiyi kimi, mərkəzi və yerli icra hakimiyyəti orqanları 2016-cı ildə sənaye istehsalı istiqamətində çox ciddi işlərin aparılmasını, ölkədə texnoparklar, sənaye klasterləri, regionlarda sənaye zonalarının yaradılmasını, iqtisadiyyatın real sektorunda yaranmış tələbə əsasən sahibkarlığın və özəl sektorun inkişafı və məşğulluğun artırılması üçün kompleks tədbirlər görülməsini təmin etməlidirlər.

...Hesabat məruzəsindən sonra "El" kiçik müəssisəsinin direktoru Tofiq Əliyev çıxış edərək qeyd edib ki, dövlət başçısının həyata keçirdiyi yeni iqtisadi islahatlar, sahibkarlığın inkişafına göstərdiyi diqqət və qayğı ölkə ictimaiyyəti tərəfindən böyük razılıqla qarşılanır. O, dövlət başçısı tərəfindən son zamanlar imzalanmış müvafiq sənədlərin, qəbul edilmiş qərarların sahibkarlığın inkişafına böyük dəstəyin göstəricisi olduğunu deyib. Azərbaycan Tələbələr Birliyinin sədri, Prezident mükafatçısı Elvin Aslanov isə çıxışında layiq görüldüyü mükafatı Prezident İlham Əliyevin gənclərə göstərdiyi böyük etimad kimi dəyərləndirib, bundan sonra məsuliyyətinin daha da artdığını söyləyib. Tədbirdə çıxış edən Azərbaycan Prezidenti Administrasiyasının məsul əməkdaşı Tağı Tağıyev dövlət başçısının rəhbərliyi ilə ölkədə gedən hərtərəfli və sürətli tərəqqi barədə ətraflı məlumat verib.

Sonra hesabat yığıncağının qərar layihəsi qəbul edilib. Yığıncaq iştirakçıları adından Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlanmış müraciətin oxunmasından sonra Binəqədi Rayon İcra Hakimiyyəti başçısının sərəncamına əsasən, rayonun sosial-iqtisadi, mədəni inkişafında və ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup şəxsin mükafatlandırılması mərasimi keçirilib. Tədbirdə yekun nitqi söyləyən Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov vurğulayıb ki, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, yerli iqtisadiyyatda qənaət prinsipinin tətbiq edilməsi və israfçılığın aradan qaldırılması məqsədilə ictimaiyyətlə birgə bu istiqamətdə zəruri tədbirlərin görülməsi vacib məsələlərdəndir. O, həmçinin, rayonda sosial-iqtisadi infrastruktur layihələrinin yüksək səviyyədə icra edilməsi, işsizlik səviyyəsinin azaldılması, sənaye sektorunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinə müvafiq dəstəyin göstərilməsi, sakinlərin məmnunluq səviyyəsinin artırılmasına dair bütün lazımi tədbirlərin həyata keçirilməsini qarşıya əsas məqsəd kimi qoyulduğunu diqqətə çatdırıb.

# 8-ci mikrorayon sakinləri ilə səyyar görüş keçirilmişdir



Fevralın 25-də Azadlıq prospekti 182/22 saylı binanın həyətində yerləşən əhalinin kütləvi tədbirlər evində Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Xaləddin İsgəndərovun 8-ci mikrorayon sakinləri ilə növbəti səyyar görüşü keçirilib. Görüşdə Rayon İcra Hakimiyyəti başçısının müavinləri, Aparatın şöbə müdirləri, məsul işçiləri, hüquq mühafizə orqanlarının, dövlət idarə, müəssisə və təşkilatlarının, xidmət sahələrinin rəhbərləri və mikrorayon sakinləri iştirak ediblər.

Əvvəlcə Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Rayon icra hakimiyyətinin başçısı Xaləddin İsgəndərov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkədə abadlıq-quruculuq və sosial-iqtisadi sahədə əldə edilən nailiyyətlərdən danışıb. İcra başçısı respublikanın digər bölgələrində olduğu kimi, Binəqədi rayonunda da genişmiqyaslı quruculuq işlərinin həyata keçirildiyini deyib: “ Ötən vaxt ərzində rayonun digər ərazilərində olduğu kimi 8- ci mikrorayonda da nəzərə çarpacaq abadlıq işləri həyata keçirildi. Bu müddət ərzində ərazidə bir neçə abad məhəllə yaradılıb və binaların fasadları təmir edilib, dam örtükləri dəyişdirilib. İşıq qaz və su ilə bağlı problemlər ardan qaldırılıb”.

Sakinlərin problemlərinin həll edilməsi istiqamətində görülən işlərin bundan sonra da davam etdiriləcəyini bildirib. “Bizim başlıca məramımız sakinlərimizin problemlərini dinləmək və vaxtında aradan qaldırmaqdır. Mən bu gün görüş keçirdiyimiz ünvanı təsadüfü seçməmişəm. Diqqətinizə çatdırım ki, rayonda ən çox abadlıq və təmir-tikinti işləri bu ərazidə aparılıb. Amma 8-ci mikrorayonda şikayətlərin çoxluğu bizi narahat edir. Şikayətlər isə əsasən çox mərtəbəli binanın tikintisi ilə bağlıdır. Mənim istəyim sakinlərlə görüşüb onları narahat edən problemləri yerindəcə aradan qaldırmaqdır”.

Tədbirdə çıxış edən sakinlər icra başçısından ərazidə narahatlıq doğuran bəzi nöqsan və çatışmazlıqların aradan qaldırılmasını xahiş edib. Sakinlər Binəqədi rayonuna göstərilən diqqət və qayğını yüksək dəyərləndirərək görülən işlərə görə ölkə başçısına öz minnətdarlıqlarını bildiriblər.

Sakinləri diqqətlə dinləyən Xaləddin İsgəndərov problemlərin yerindəcə həll olunması üçün səlahiyyətli qurumların rəhbərlərinə lazımı göstərişlərini verib.

# Apelyasiya şuralarının yaradılması sahibkarlığın inkişafına təkan verəcək



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 fevral 2016-cı il tarixdə imzaladığı “Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apelyasiya Şuralarının yaradılması haqqında” fərmanının icrası ilə əlaqədar olaraq, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müvafiq sərəncamı ilə icra hakimiyyəti yanında Apelyasiya Şurası yaradılıb.

Sahibkarlıqla məşğul olan fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı yerli icra hakimiyyəti orqanının sərəncamından, əmrindən, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərə baxılması məqsədi ilə yaradılan Şuraya Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov sədr təyin edilib. Üzvlərinin sayı 6 nəfərdən ibarət olan Şuranın tərkibinə RİH başçısı Aparatının strukturuna aid olan şöbələrin rəhbər şəxsləri və icra hakimiyyəti başçısının Rəsulzadə qəsəbəsi üzrə nümayəndəsi daxil edilib, o cümlədən katibliyin rəhbəri və üzvləri müəyyənləşdirilib.

Fevralın 19-da Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov Apelyasiya Şurasının və katibliyin üzvləri ilə görüşüb.

Görüşdə Şura üzvlərinə fəaliyyətlərinin “Yerli icra hakimiyyəti orqanlarının Apelyasiya Şuraları haqqında” Nümunəvi Əsasnamə”yə uyğun qurulması ilə bağlı tapşırıqlar verilib.

Qeyd edək ki, yerli icra hakimiyyətlərində Apelyasiya Şurasının yaradılması rayon sahibkarları tərəfindən də razılıqla qarşılanıb. Məsələyə münasibət bildirən Bakı Tekstil Fabrikinin direktoru Səkinə Babayeva hesab edir ki, dövlət başçısının bu fərmanı ölkədə sahibkarlığın inkişafı, sahibkarların hüquqlarının qorunması istiqamətində atılan daha bir uğurlu addımdır: “Şübhəsiz ki, Azərbaycan Prezidentinin sahibkarlığın inkişafı ilə bağlı verdiyi bütün fərman və sərəncamlar ölkə iqisadiyyatının yüksəldilməsinə təkan verəcək. İqtisadiyyatla bağlı bütün qərarlar ölkəmizin iqtisadi gücünün daha da artmasına öz töhfəsini verir. Apelyasiya Şurasının yaradılması sahibkarlığın inkişafı ilə yanaşı, müxtəlif sahələr üzrə mütəxəssislərin hazırlanmasına da imkan yaradacaq”.

“Baker” MMC-nin direktoru Qadir Əkbərov bizimlə söhbətində bildirib ki, Azərbaycan Prezidentinin sahibkarlıqla bağlı verdiyi sərəncam və fərmanlar iqtisadiyyatımız üçün görülən ən mühüm işlərdən biridir: “Cənab Prezidentin bu fərmanı sahibkarların güzəştli kreditlər əldə etməsinə, onların hüquqlarının qorunmasına çox böyük faydalar verəcək. Sözsüz ki, rəhbərlik etdiyim müəssisə də bu fürsətdən yararlanacaq. Prezidentimizin fərmanları iş adamlarına aşağı faizlə kreditərin verilməsinə daha bir yaşıl işıq yandırdı. Əminəm ki, dövlət başçısının düşünülmüş şəkildə atdığı bu addımlar bütün sahələrdə öz bəhrəsini verəcək, iqtisadi yüksəlişimiz daha geniş şəkildə davam etdirələcək. Prezidentin fərmanı sahibkarları daha da ruhlandırdı. İndi Azərbaycandakı iş adamları daha həvəslə işləməyə başlayıblar, çünki biz bilirik ki, sahibkarların hüquqları Azərbaycan Prezidenti tərəfindən daim qorunur”.

“El Kiçik” müəssisəsinin direktoru Tofiq Əliyevin fikrincə, Apelyasiya Şurasının yaradılması ölkədə sahibkarlığın inkişafına böyük təkan verəcək: “Son vaxtlar Azərbaycan Prezidenti sahibkarlığın inkişafı ilə bağlı bir sıra sərəncam və fərmanlar imzalayıb. Mərkəzi və yerli icra hakimiyyətlərində Apelyasıya Şurasının yaradılması bu istiqamətdə atılan ən mütərəqqi addımlardan biridir. Sahibkar iqtisadiyyatın bütün sferalarında və yaxud bürokratik strukturlarda bu və ya digər manelərə rast gələ bilir. O zaman sahibkar öz işini operativ həll etmək üçün yerli və mərkəzi icra hakimiyyətlərində yaradılan Apelyasiya Şurasına müraciət edir və oradan müvafiq qərar alır. Əgər bu qurumdan da hər hansı bir etiraz olarsa, Prezident yanında Apelyasıya Şurasına müraciət edib müsbət nəticə əldə edə biləcək. Bu baxımdan, sözügedən fərman çox əhəmiyyətlidir. Bütün bunlar qeyri-neft sektorunun dinamik inkişafına xidmət etməklə yanaşı, sahibkarlığı stimullaşdıracaq, sahibkarların təşəbbüsünü inkişaf etdirəcək. İqtisadiyyatın bütün sahələrində yüksəliş baş verəcək, sahibkarın ətrafında azad mühit yaranacaq və beləliklə, iqtisadiyyatımızın sürətli inkişafı təmin olunacaq”.

# Xalq şairi ilə görüş



Azərbaycanın əməkdar incəsənət xadimi, xalq şairi Nəriman Həsənzadənin Binəqədi gəncləri ilə görüşü olub. Tədbirdən öncə xalq şairini rayon icra hakimiyyətinin başçısı Xaləddin İsgəndərov qəbul edib. Çay süfrəsi arxasında səmimi söhbətdə şairin yaradıcılığına nəzər salınıb, həmçinin rayonda aparılan abadlıq-quruculuq işlərinə münasibət bildirilib. Nəriman Həsənzadə səmimi qəbul üçün rayon rəhbərliyinə təşəkkürünü bildirib.

Sonra Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasının akt zalında xalq şairi ilə görüş keçirilib. Görüşdə YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov, ədəbiyyatşünas Rüstəm Kamal və gənclər iştirak ediblər.

Görüşü giriş nitqi ilə açan Rüstəm Kamal xalq şairinin yaradıcılığından geniş bəhs edib, onun müxtəlif dövrlərdə yazdığı şeirlərə, əsər və poemalara toxunub. Natiq Nəriman Həsənzadənin Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olduğunu söyləyib, bir çox mahnıların onun sözlərinə bəstələndiyini və əsərlərinin dünya oxucuları tərəfindən böyük rəğbətlə qarşılandığını nəzərə çatdırıb.

Ramiz Göyüşov çıxışında görüşün əhəmiyyətini vurğulayaraq, tədbirin çoxminli gənc YAP-çıların arzu və istəyi nəticəsində reallaşdırıldığını qeyd edib. Sədr xalq şairinin şərəfli ömür yolu və yaradıcılığı haqqında danışaraq, onu Azərbaycan ədəbiyyatının böyük simalarından biri kimi xarakterizə edib. Bütün gəncləri onun yaradıcılığından bəhrələnməyə və daim dövlətinə, xalqına sadiq olmağa çağırıb. Xalq şairi ilə görüşdən böyük məmnunluq duyduğunu bildirən R.Göyüşov bu cür tədbirlərin davamlı olacağını iştirakçıların diqqətinə çatdırıb.

Görüşdə çıxış edən xalq şairi Nəriman Həsənzadə gənclərlə görüşməkdən böyük məmnunluq hissi keçirdiyini bildirib. Tədbirin təşkili üçün Binəqədi Rayon İcra Hakimiyyətinə, YAP Binəqədi rayon təşkilatına və Binəqədi rayon Gənclər və İdman İdarəsinə minnətdarlığını bildirən şair keşməkeşli həyat yolundan, yaradıcılıq fəaliyyətdən bəhs edib, gənclərə vətənpərvərliyi, dövlətə, xalqa sədaqəti daim uca tutmağı tövsiyə edib.

Görüşün sonunda xalq şairinin kitablarının imzalanma mərasimi keçirilib.

# Tolerantlıq dövlət siyasətinin tərkib hissəsidir





“İmamzadə” kompleksinin açılışında iştirak etmək üçün Gəncəyə gedən rayonun din xadimləri ilə Binəqədi rayonunun İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov arasında görüş keçirilib.

İcra hakimiyyətinin başçısı bildirib ki, milli-mənəvi dəyərlərimiz xalqımızın simasında zaman-zaman yaşayıb. Bizi başqa xalqlardan, millətlərdən fərqləndirən də elə bir çox məqamda milli-mənəvi dəyərlərimiz, mədəniyyətimiz, mənəviyyatımızdır. RİH başçısı çıxışında Prezident İlham Əliyevin 2016-cı ilin Azərbaycanda “Multikulturalizm ili” elan olunması haqqında imzaladığı sərəncamdan sonra bu məsələyə daha böyük maraq göstərildiyini vurğulayıb. Tolerantlığın Azərbaycanın dövlət siyasətinin tərkib hissəsi olduğunu deyən icra başçısı ölkəmizin mədəniyyətlər, sivilizasiyalar və dinlərarası dialoqun qlobal səviyyədə təşviqi məqsədilə bir çox mötəbər tədbirlərə ev sahibliyi etdiyini diqqətə çatdırıb.

Rayonun din xadimləri də öz növbəsində milli-mənəvi dəyərlərimizin qorunması və bu sahəyə göstərilən diqqətə görə ölkə başçısına, o cümlədən rayon rəhbərliyinə təşəkkürlərini bildiriblər.

# “Açıq qapı” vətəndaş forumu

Dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın təmin edilməsi, ictimaiyyətin iştirakının genişləndirilməsi, yeni texnologiyaların tətbiqi əsas prinsiplərdir. İdarəetmənin müasir standartlara uyğun təkmilləşdirilməsi məqsədilə təsdiq olunmuş “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”na əsasən, Binəqədi rayonunda bir sıra tədbirlər həyata keçirilməkdədir. Binəqədi Rayon İcra Hakimiyyəti başçısının yerlərdə sakinlərlə keçirdiyi mütəmadi səyyar görüşlər əhalinin problemlərinin həllində mühüm rol oynamaqla yanaşı, qəbul edilən qərarlarda, görülən işlər və atılan addımlarda ictimaiyyətin iştirakına əlverişli şərait yaradır.



Artıq ənənə halı almış bu cür tədbirlər sakinlərin problemlərinin öyrənilməsi və aradan qaldırılması baxımından səmərəli vasitələrdən biridir. Görüşlər zamanı sakinləri narahat edən problemlər onların özləri tərəfindən səsləndirilir, digər tərəfdən, vətəndaşlar öz rəy və təkliflərini aidiyyəti qurumlara çatdırmaq imkanı qazanırlar.

Fevralın 10-da Binəqədi Rayon İcra Hakimiyyətində növbəti “Açıq qapı” vətəndaş forumu keçirilib. Görüşdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Xaləddin İsgəndərov, RİH başçısının müavinləri, Aparatın şöbə müdirləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, habelə rayon sakinləri iştirak ediblər.

Görüşdə sakinləri narahat edən problemlər dinlənilb və bir qisminin həlli üçün aidiyyəti qurumların rəhbərlərinə yerindəcə tapşırıqlar verilib, bir qisminin həlli isə nəzarətə götürülüb. Ölkənin sürətli inkişafı və Binəqədi rayonunda gedən intensiv abadlıq-quruculuq işlərindən danışan sakinlər bu tədbirlərin rayonun sosial-iqtisadi tərəqqisinə təkan verdiyini və əhalinin rifah halının yüksəlməsinə müsbət təsir göstərdiyini deyiblər. Sakinlər bu inkişaf tempinin onlarda məmnunluq yaratdığını və mövcud olan bir sıra cari problemlərin aradan qaldırılacağına əminliklərini ifadə ediblər.

# Bələdiyyələr arasında əməkdaşlıq protokolu imzalanıb



"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq, Binəqədi rayon bələdiyyələri Gədəbəy, Şəmkir və İsmayıllı rayonlarında olublar.

Səfərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov, Qəsəbə Bələdiyyələri Assosiasiyasının rəhbəri, M.Ə.Rəsulzadə bələdiyyəsinin sədri Hümbət Hüseynov və Binəqədi qəsəbə bələdiyyəsinin sədri Aytac Əliyeva iştirak ediblər.

Səfər çərçivəsində əvvəlcə Gədəbəy rayonunda olan nümayəndə heyəti burada təşkil olunmuş kənd təsərrüfatı məhsullarının sərgisi ilə tanış olub. Şəmkir rayonunda isə qonaqlar Binəqədi rayonunda fəaliyyət göstərən istehsal müəssisələrinin sərgisinə baxıblar. Binəqədi bələdiyyələrinin sədrləri İsmayıllı rayonunda da olublar.

Səfər çərçivəsində Binəqədi və Gədəbəy, Binəqədi və Şəmkir eləcə də Binəqədi və İsmayıllı bələdiyyələri arasında qarşılıqlı fəaliyyət proqramına dair imzalanmış niyyət protokollarına əsasən, tərəflər bir çox sahələr üzrə əməkdaşlıq edəcək, xüsusilə də kənd təsərrüfatı və emal müəssisələri məhsullarının Binəqədi rayonu ərazisində satışı həyata keçiriləcək. Dostluq münasibətləri çərçivəsində mədəni kütləvi tədbirlərin keçirilməsi də nəzərdə tutulub..

Bu cür səfərlərin əsas məqsədi ölkə başçısının rəhbərliyi ilə ötən ay keçirilən konfransda gələcək fəaliyyət üçün qarşıya qoyulan istiqamətlərin icrasını təmin etməkdir. Layihənin yaxın gələcəkdə icrası yerli istehsalın qorunmasına şərait yaradacaq, inhisarçılığın qarşısı alınacaq və ərzaq məhsulları ilə təminatda ölkə başçısının qarşıya qoyduğu ən mühüm tapşırıqlardan biri olan idxaldan asılılığın qismən azalmasına gətirib çıxaracaq. Əlavə edək ki, artıq layihənin uğurlu icrası üçün tərəfdaş bələdiyyələr bütün hazırlıqları həyata keçiriblər.

# Millət vəkili gənclərlə görüşüb



Fevralın 18-də Yeni Azərbaycan Partiyası (YAP) Binəqədi rayon təşkilatının inzibati binasında Milli Məclisin deputatı, siyasi elmlər doktoru Elman Nəsirovun YAP fəalları ilə görüşü keçirilib.

YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov qonaqları salamlayıb, millət vəkili Elman Nəsirova və partiya fəallarına dəvəti qəbul edib gəldikləri üçün təşəkkürünü çatdırıb. Sədr rayon təşkilatı tərəfindən həyata keçirilən layihələrdən və müxtəlif mövzuları əhatə edən maarifləndirici tədbirlərdən söhbət açıb. Bu görüşün təşkilatın Gənclər Birliyinin fəallarının istək və arzusu ilə reallaşdırıldığını diqqətə çatdırıb. Ölkəmizin müxtəlif sahələrdə tanınmış şəxsiyyətləri, ictimai-siyasi xadimləri, millət vəkilləri ilə mütəmadi görüşlərin keçirildiyini və gənclər arasında geniş fikir mübadilələrinin aparılmasının əhəmiyyətini vurğulayan R.Göyüşov bu görüşdə də gəncləri maraqlandıran geosiyasi və ölkəmizin mövcud ictimai-siyasi vəziyyətinə dair bir sıra məqamların açıqlanacağını qeyd edib.

Elman Nəsirov gənclərlə keçirilən görüşlərdən böyük zövq aldığını və bu cür tədbirlərdə davamlı iştirak etdiyini bildirib. O, dünyada baş verən münaqişələr, terror hadisələri, Suriya məsələsi, Türkiyə-Rusiya münasibətləri, Davos Forumu, iqtisadi böhranlar, Azərbaycanın ictimai-siyasi vəziyyəti, neftin qiymətinin kəskin ucuzlaşması və bunun fonunda ölkəmizdə həyata keçirilən antiböhran tədbirləri, kənd təsərrüfatının inkişafı və s. mövzularda geniş çıxışlar edib. Politoloq Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən uğurlu islhatlardan danışıb, dünyada baş verən gərginliklər fonunda ölkəmizin öz inkişaf göstəricilərini qoruyub saxladığını və dövlətimiz tərəfindən bu istiqamətdə mühüm islahatların həyata keçirildiyini vurğulayıb.

E.Nəsirov, həmçinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və ATƏT-in Minsk Qrupunun fəaliyyəti barədə danışıb, münaqişənin həlli üçün danışıqların davam etdirilməsini vacib hesab etdiyini bildirib.

Görüşün sonunda millət vəkili müxtəlif mövzular ətrafında gəncləri maraqlandıran sualları cavablandırıb.

# Ölkə başçısının tapşırıqları uğurla icra edilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında və yanvarın 26-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunan konfransda şəhər, rayon icra hakimiyyətlərinin müvafiq ərazilərində iqtisadi durumun yaxşılaşdırılması, sağlam biznes mühitinin yaradılması, kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması üçün münbit şəraitin yaradılması, sahibkarların qarşısında yaradılan süni maneələrin aradan qaldırılması, yeni iş yerlərinin açılması, investorlar tərəfindən şəhər və regionlarda investisiya qoyuluşunun artırılmasına şərait yaradılmasını qarşıya mühüm vəzifə kimi qoyub.

Ölkə başçısının bu tapşırığı Binəqədi rayonunda uğurla icra olunmaqdadır. Bu məqsədlə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı "Sahibkarların inkişaf etdirilməsi və əhalinin məşğulluq səviyyəsinin artırılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarının icrasını təmin etmək məqsədilə Qərargahın yaradılması haqqında" fevralın 9-da 24 saylı sərəncam imzalayıb və buna uyğun olaraq, yerlərdə keçirilməsi nəzərdə tutulan görüşlərin qrafiki təsdiq edilib. İcra hakimiyyətindən əldə etdiyimiz məlumata görə, artıq görüşlərə başlanılıb. Belə ki, qrafikə əsasən, fevralın 23-də RİH başçısının birinci müavini İlqar Süleymanov Biləcəri qəsəbəsində "Azərenerji" ASC-nin Enerji Təchizatı İdarəsinin kollektivi ilə görüşüb. Görüşdə sərəncamdan irəli gələn məsələlər müzakirə edilib.

# Binəqədi bələdiyyələrinin nümayəndələri Milli Məclisdə olublar



"Parlamentdə bir gün" layihəsi çərçivəsində Milli Məclis sədrinin müavini, parlamentin İnsan hüquqları komitəsinin sədri Bahar Muradovanın və Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadənin Bakının Binəqədi rayon bələdiyyələrinin nümayəndələri ilə görüşü keçirilib.

Görüşdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, Binəqədi qəsəbə bələdiyyəsinin sədri Aytac Əliyeva, Binəqədi rayon Binəqədi bələdiyyəsinin sədri Sitarə Cabbarlı, Rəsulzadə bələdiyyəsinin sədri, Qəsəbə Bələdiyyələri Milli Assosiasiyasının sədri Hümbət Hüseynov və digər bələdiyyə nümayəndələri çıxış edərək bildiriblər ki, rayon icra hakimiyyəti və bələdiyyələr arasında sıx əməkdaşlıq mövcuddur, vətəndaşların qəbulu və müraciətlərinə baxılması məsələsi operativ həll olunur, işin səmərəliliyini artırmaq və vətəndaşların məmnunluğunu təmin etmək üçün rayon üzrə məhəllə komitələri yaradılıb. Qeyd olunub ki, bələdiyyələrdə informasiya-kommunikasiya vasitələri geniş tətbiq edilir və bu sahədə təcrübə mübadiləsi aparılır. Beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində də fəal iş görülür.

Görüşdə iştirak edən millət vəkilləri Tahir Rzayev, Rüstəm Xəlilov, Azər Badamov, Malik Həsənov, Kamran Bayramov bələdiyyələr arasında münasibətlərin qurulması, bələdiyyə büdcələrinin formalaşması və ondan səmərəli istifadə edilməsinin vacibliyini vurğulayıblar, Binəqədi rayonu bələdiyyələrinə gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

# Binəqədi rayonunda məskunlaşmış xocalılar ziyarət olunub

Fevralın 23-də Binəqədi Rayon İcra Hakimiyyəti və Binəqədi rayon bələdiyyəsi tərəfindən Goradil bağlar massivində yerləşən 2 saylı Evtikmə Kombinatının istirahət zonasında və Muğan sanatoriyasında məskunlaşmış Xocalıdan olan şəhid ailələri və məcburi köçkünlərlə görüş keçirilib. Xocalı soyqırımı zamanı şəhid olmuş insanların ailələrinə Binəqədi Rayon İcra Hakimiyyəti rəhbərliyinin adından başsağlığı verilib, sakinlərin problemləri dinlənilib, onları narahat edən məsələlərin həlli ilə bağlı müvafiq tədbirlərin görüləcəyi bildirilib.

Qeyd olunub ki, Xocalı soyqırımında həm fiziki, həm də mənəvi terrora məruz qalmış insanlar daim dövlət qayğısı ilə əhatə edilib və onlar heç vaxt diqqətdən kənarda qalmır. Söhbət zamanı erməni qəsbkarlarının törətdiyi bu soyqırımına məhz ulu öndər Heydər Əliyev tərəfindən hüquqi-siyasi qiymət verildiyi vurğulanıb.

Xocalılar onlara göstərilən diqqət və qayğıya, maddi və mənəvi dəstəyə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.



# Məlumat saatı Xocalı soyqırımına həsr olunmuşdu...




Fevralın 25-də Binəqədi Rayon İcra Hakimiyyətində növbəti məlumat saatı keçirilib. Tədbirdə icra hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, RİH başçısı Aparatının əməkdaşları, icra və bələdiyyə nümayəndələri iştirak ediblər.

Əvvəlcə Xocalı faciəsində həlak olmuş soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxışını Xocalı faciəsinin ildönümünə həsr edən Vüsar İsmayılov bildirib ki, bu soyqırımı hadisəsi, əslində, erməni təcavüzkarlarının yalnız Azərbaycan xalqına deyil, bütövlükdə bəşəriyyətə, insanlığa qarşı törədilmiş ən ağır cinayətdir: "Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, beynəlxalq aləmdə erməni cəlladlarının iç üzünün açılması istiqamətində Heydər Əliyev Fondunun həyata keçirdiyi ölçüyəgəlməz fəaliyyət həqiqətən də təqdirəlayiqdir.".

Tədbirdə iştirak edən Bakı Dövlət Universitetinin tarix müəllimi, tarix elmləri üzrə fəlsəfə doktoru Boran Əziz "Bəşəriyyətə qarşı cinayət: Xocalı soyqırımı" mövzusunda məruzə ilə çıxış edib. Tarixçi vurğulayıb ki, bu qətliam erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir.

# Əhalinin tibbi müayinəsinə başlanılıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, fevralın ayının 15-dən başlayaraq, respublikanın hər yerində olduğu kimi, Binəqədi rayonunda da əhalinin tibbi müayinəsinə start verilib. Müayinələrin yüksək səviyyədə təşkili üçün poliklinikalar lazımi avadanlıqlarla tam təchiz olunub, vətəndaşların rahatlığı üçün bütün şərait yaradılıb, bu məqsədlə rayon icra hakimiyyəti başçısının müvafiq sərəncamı ilə xüsusi komissiya yaradılıb.

Müayinənin ilk günündə, qrafikə uyğun olaraq, rayonun idarə və müəssisələrində, təhsil ocaqlarında çalışanlar tibbi müayinədən keçiblər. Xəstəxanaya gələ bilməyən yaşlı insanlara evlərində tibbi xidmət göstərmək məqsədilə həkimlərdən ibarət səyyar briqadalar yaradılıb.

Müayinələr əsasən terapevt, stomatoloq, kardioloq, ginekoloqlar tərəfindən həyata keçirilir. Bundan başqa, diabetdən əziyyət çəkən xəstələr üçün qan analizi də aparılır.

Aksiyanın ilk günündə 1000-dən çox sakin tibbi müayinədən keçib.

Tədbir may ayının 2-dək davam edəcək.

# "ASAN" könüllüləri üçün təlim




Binəqədi Rayon İcra Hakimiyyətində təcrübə keçən «ASAN» könüllülər üçün "Layihələrin yazılması və idarə edilməsi" mövzusunda təlim keçirilib. Təlim çərçivəsində Binəqədi RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Leyla Kərimova gənclərə mövzu ilə bağlı ətraflı məlumat verib.

İki gün davam edən təlim zamanı iştirakçılar onlara verilən praktik tapşırığa uyğun olaraq, "Mədəniyyət və turizm", "Təhsil", "Ekologiya" mövzularında layihələr hazırlayaraq təqdimatlar ediblər.

Könüllülər üçün təlimlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulub.

# Gənclərə qayğı göstərilir



Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi və "Gənc Mühəndislərin İnkişafı" İctimai Birliyinin təşkilatçılığı ilə "Xüsusi qayğıya ehtiyacı olan gənclərə kompüter tədrisi" layihəsinin yekunu ilə bağlı tədbir keçirilib.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Rauf Həsənov, "Gənc Mühəndislərin İnkişafı" İctimai Birliyinin sədri Zaur Mirzalıyev və gənclər iştirak ediblər. R.Həsənov və Z.Mirzalıyev layihəni uğurla bitirən gənclərə müvəffəqiyyət arzulayıb, belə layihələrin davamlı olacağına əminliklərini bildiriblər.

Sonra layihəni uğurla bitirən gənclərə sertifikatlar təqdim edilib.

Qeyd edək ki, layihədən Binəqədi rayonundan xüsusi qayğıya ehtiyacı olan on beş ailənin övladı bəhrələnib.

# Prezident mükafatına layiq görülən binəqədili gənclər

Azərbaycan Respublikasının Prezident İlham Əliyev 2016-cı il "Gənclər üçün Prezident mükafatları"nın verilməsi haqqında sərəncam imzalayıb. Sevindirici haldır ki, elm, təhsil, mədəniyyət, ədəbiyyat və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən və mükafata layiq görülənlər arasında Binəqədi gəncləri də var - Nərmin Nəcəfli musiqi sahəsində, Elvin Aslanov isə ictimai işlərdə fəallığına görə Prezident mükafatı ilə təltif olunub.

Nərmin Nəcəfli 1996-cı ildə anadan olub. O, musiqiyə uşaq yaşlarından maraq göstərib. 26 saylı musiqi məktəbinin fortepiano şöbəsində təhsil alan Nərmin elə ilk gündən istedadı ilə həmyaşıdlarından fərqlənib. Azərbaycan Respublikası Prezidentinin qərarı ilə Nərmin 13 yaşında xüsusi aylıq təqaüdə layiq görülüb və adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılıb. 2004-2007-ci illərdə Bakıda keçirilən müxtəlif müsabiqələrin, Moskva şəhərində 8 12 yaşlı uşaqlar arasında keçirilən beynəlxalq müsabiqənin qalibi, Tbilisidə keçirilən beynəlxalq musiqi festivalının laureatı, II və IV beynəlxalq Rastropoviç, 2011-ci ildə III beynəlxalq Üzeyir Hacıbəyli festivallarının iştirakçısı olub. 2008-ci ilin mayında ümummilli lider Heydər Əliyevin 85 illik yubileyinə həsr olunmuş I Respublika müsabiqəsində "Qran-pri"nin sahibi olub.

Nərminin Avropada tanınmasında Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə keçirilən tədbirlərdə iştirakı böyük rol oynayıb. 2006-cı ildə Parisdə keçirilən «Azərbaycan: mədəniyyətlərin və sivilizasiyaların kəsişmə nöqtəsi», 2008-ci ildə Strasburqda və Brüsseldə təşkil olunan "Azərbaycanın xoşməramlı mələkləri" konsert proqpamlarında, İtaliyanın Forte dey Marmi şəhərindəki solo konsertlərdə göstərdiyi məharət və istedad onun şöhrətini bir çox ölkələrə yayır və gənc pianoçu xarici müsabiqələrə dəvət alıb. 2010-cu ildə Almaniyada keçirilən beynəlxalq müsabiqədə çıxış edən Nərmin dünyanın bir çox ölkələrindən – ABŞ, Almaniya, Böyük Britaniya, Belçika, Yaponiya, Bolqarıstan, Polşa, Rumıniya, Rusiya, İsveç, Portuqaliya, İndoneziya və sair ölkələrdən qatılan 38 iştirakçı arasında seçim turundan qalib çıxan 8 nəfərdən biri olub. Uğurlu çıxışına görə xüsusi mükafata layiq görülüb. Elə həmin il İtaliyadan dəvət alan N.Nəcəfli Eppan şəhərində solo konsertlə çıxış edib. Konsertdə iştirak edən professor Andrea Bonatta onun ifasını yüksək dəyərləndirir və gənc pianoçunu Polşaya, Bidqoş şəhərindəki Paderevski Piano Akademiyasına dəvət edib. Akademiyada professorlar İlya Şeps və Robert McDonalddan ustad dərsləri alan Nərmin şəhərdə təşkil olunmuş Qala konsertdə Polşa Dövlət Simfonik Orkestrinin müşayiəti ilə Çaykovskinin 1 nömrəli konsertini ifa edib. 2011-ci ildə istedadlı pianoçu Paris Konservatoriyasının professoru Muza Rubatskitenin dəvəti ilə Fransanın Bagnere de Bigorre şəhərində keçirilən Piano Pic və Litvadakı II beynəlxalq Vilnüs fortepiano musiqi festivallarında müvəffəqiyyətlə iştirak edib. O, 2012-ci ildə İtaliyanın Seregno şəhərində keçirilən beynəlxalq müsabiqədə böyük yaş qrupunda, Estoniyanın Narva şəhərində keçirilən IX beynəlxalq Şopen müsabiqəsində qalib adını qazanaraq diplom və hədiyyələrlə mükafatlandırılıb. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Fransanın Reyms şəhərində keçirilən "Qafqazın mirvarisi olan Azərbaycanın mədəni dəyərləri" adlı konsert proqramında uğurlu çıxış edib. İngiltərənin Nyukasl şəhərində baş tutan Gənc pianoçuların V beynəxalq müsabiqəsində I yerə layiq görülən Nərmin 2013-cü ildə Litvanın Kaunas şəhərində keçirilən XXII beynəlxalq festivalda, Almaniyanın Halle şəhərində təşkil olunan Euro Arts festivalının və Gənc pianoçuların Neyqauz adına IV beynəlxalq Moskva festivalında uğurla çıxış edib. 2014-cü ildə Bülbül adına orta-ixtisas musiqi məktəbini bitirən gənc xanım öz arzusu ilə Almaniyanın Hannover şəhərindəki Musiqi, Teatr və Dram Akademiyasının fortepiano şöbəsinə qəbul olunur və professor Bernd Goetzkenin sinfində təhsilini davam etdirir. Nərminin qalib gəldiyi bir çox müsabiqələr səviyyəsinə görə Avropa Musiqi Müsabiqələri Birliyinə (EMCY) və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Müvafiq ixtisaslar üzrə ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmağa əsas verən dünya fənn olimpiadalarının siyahısı"na daxil olduğuna görə o, Bakı Musiqi Akademiyasına imtahansız qəbul edilib. Lakin gənc pianoçu klassik musiqinin əsaslarını öz professionallığı və tədris metodikası ilə dünyada məşhur olan professor Goetzkedən öyrənməyə üstünlük verib.

Hazırda Nərmin Nəcəfli Almaniyada musiqi təhsilini davam etdirir. Aldığı mükafatla bağlı onun da fikirlərini öyrəndik: "Azərbaycan Respublikasının Prezident İlham Əliyevin imzaladığı sərəncamda mənim də adımın olduğuna çox sevindim. Cənab Prezidentin bu mükafatı mənim üzərimə daha böyük məsuliyyət qoydu. Təltif olunmağım məni daha da ruhlandırdı. Sevinirəm ki, Azərbaycan kimi gözəl ölkəm var. Doğma vətənimi daha da yüksək səviyyədə tanıtmaq üçün bundan sonra da var-qüvvəmlə çalışacağam".



Prezident mükafatçısı Elvin Aslanov ictimai fəaliyyətə hələ orta məktəbdə təhsil alarkən 2007-2008-ci illərdə "Gənclər üçün Təhsil Mərkəzi" İctimai Birliyində Tələbə problemləri üzrə proqram meneceri vəzifəsində işləyib. Həmin ildə sözügedən təşkilatın Britaniya Konsulluğu ilə birgə həyata keçirdiyi "Dostlar dənizi" adlı beynəlxalq layihənin iştirakçısı olub, Makedoniya, Böyük Britaniya, İsrail və Gürcüstanda keçirilən beynəlxalq tədbirlərdə ölkəmizi təmsil edib. "QHT idarəetməsi", "Təlimçilər üçün təlim", "Layihə menecmenti", "Layihənin hazırlanması", "Komanda quruculuğu", "PR işinin təşkili", "Könüllülük işinin təşkili" və digər mövzular üzrə təlimçilik təcrübəsinə malikdir. 2008-ci ildə "Azərbaycan tələbələri" İctimai Birliyinin təsisçisi olan Elvin sonradan həmin təşkilatın sədri seçilib. Keçən dövr ərzində Birliyin Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu, Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası, Avropa Komissiyası və digər qurumlarla birgə həyata keçirdiyi layihələrin ideya müəllifi və rəhbəri olub. Birlik Avropa Tələbələr Birliyinin tamhüquqlu üzvüdür. E.Aslanov Avropanın 10 müxtəlif ölkəsindən ən aktiv gənclər təşkilatlarının birləşdiyi Avropa Gənclərinin Mobillik Şəbəkəsinin yaradılması prosesində fəal iştirak edib. Hazırda şəbəkənin İdarə Heyətinin üzvüdür. Elvin 2012-ci ildə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclərlə İş üzrə İctimai Şuranın sədr müavini seçilib. Bu vəzifədə gənclər siyasətinin həyata keçirilməsində gənclər təşkilatlarının rəy və təkliflərinin öyrənilməsində, bu sahədə ictimai dəstəyin formalaşdırılmasında və digər fəaliyyətlərin icrasında fəal iştirak edir. 2013-cü ildən Avropa İttifaqının SALTO Şərqi Avropa və Cənubi Qafqaz ölkələri üzrə Mərkəzinin Azərbaycan üzrə informasiya təmsilçisidir. Avropa İttifaqının 2007-2013-cü illəri əhatə edən "Gənclər fəaliyyətdə" və 2014-2020-ci illəri əhatə edən "Erasmus+" proqramlarının Azərbaycanda təbliğ edilməsində, ölkəmizdə fəaliyyət göstərən gənclər təşkilatlarının bu proqramlar çərçivəsində fəal iştirak edib.





E.Aslanovun "Azərbaycan Tələbələri" İctimai Birliyinə rəhbərlik etdiyi dövrdə təşkilatın həyata keçirdiyi fəaliyyətlərdə 2000-dən artıq gənc yaxından iştirak edib. O, Avropa İttifaqının "Gənclər fəaliyyətdə" proqramında gənclərin daha da fəal iştirakının təmin edilməsində, Avropa Tələbələr Birliyi ilə əməkdaşlıq əlaqələrinin qurulmasında, Avropa Gənclərinin Mobillik Şəbəkəsinin yaradılması prosesində, tələbələrin asudə vaxtlarının səmərəli təşkilində, beynəlxalq əməkdaşlığın gücləndirilməsində, ölkəmizin müxtəlif xarici ölkələrdə tanıdılması prosesində, tələbələrin ictimai fəaliyyətə cəlb olunmasında yaxından iştirak edib və müvafiq tədbirlər həyata keçirilməsində fəallıq nümayiş etdirib. Fəal gənc tələbələrlə iş və beynəlxalq gənclər siyasəti sahəsində geniş təcrübəyə malikdir. Belə ki, o, bu günə qədər 10-dan artıq ölkədə həyata keçirilən rəsmi tədbirlərə iştirakçı və ekspert kimi qoşulub. Azərbaycanın ilk dəfə Avropa Tələbələr Birliyində təmsil olunmasını təmin edib. E.Aslanov 2015-ci ildə Bakı Avropa Oyunları Əməliyyat Komitəsinin Akkreditasiya əməliyyatları üzrə əlaqələndiricisi olub. Akkreditasiya sisteminin qurulması, akkreditasiya prosesinin həyata keçirilməsində fəal iştirak edib.

Elvin Aslanov öz təəssürtalarını bizimlə bölüşdü: "Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 29-da Gənclər Forumunun 20 illiyi və Gənclər Günü ilə bağlı qəbul etdiyi 30 gəncdən biri də mən idim. Görüşdə müxtəlif sahələrdə fəaliyyət göstərən gənclər var idi. Həmin gün mənim üçün ikiqat sevinc oldu. Belə ki, günün sonunda daha bir xoş xəbər eşitdim. Prezidentin gənclərin mükafatlandırılması ilə bağlı verdiyi sərəncamda mənim də adım var idi. Bu mükafat Azərbaycan Prezidentinin gənclərə göstərdiyi diqqət və qayğının, etimadın nümunəsidir. Məsuliyyətim ikiqat artdı. Çalışacağam ki, bundan sonra daha diqqətli olum. Biz gənclər cənab Prezidentin siyasətini daim dəstəkləyirik. Yaşadığım Binəqədi rayonunda da gənclərə xüsusi diqqət və qayğı var. Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi ilə indiyəqədər müxtəlif tədbirlər təşkil etmişik. Ötən müddət ərzində ayrı-ayrı xarici təşkilatlar rayon icra hakimiyyətində olub. Rayon icra hakimiyyətinin rəhbərliyi gənclərə qayğı ilə yanaşır. İcra hakimiyyətinin başçısı Xaləddin İsgəndərov Prezident mükafatı ilə əlaqədar mənə təbrik məktubu göndərib. Bu, mənim üçün çox önəmlidir. Çalışacağam ki, mənə göstərilən etimadı layiqincə doğruldum".

## Heydər məscidi ilə tanışlıq

Ölkənin şəhər, rayon icra hakimiyyəti başçısı aparatlarının ictimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavinləri-dini qurumlarla işin təşkilatçıları Heydər məscidi ilə tanış olublar.

Qonaqlara məscid barədə məlumat verilib. Bildirilib ki, tikintisinə 2012-ci ilin sentyabr ayında başlanılan Heydər məscidi 2014-cü il dekabrın 26-da istifadəyə verilib. Prezident İlham Əliyevin tapşırığı ilə inşa olunan məscid 12 min kvadratmetr sahədə salınıb. Məscidin fasadı Şirvan-Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənib, ornamentlərin zənginliyi fasadda xüsusi arxitektura harmoniyası yaradıb. Burada 95 metr hündürlüyündə 4 minarə inşa olunub.

Diqqətə çatdırılıb ki, ümumi sahəsi 4200 kvadratmetr olan məscidin daxilində də xüsusi bəzək elementlərindən istifadə olunub, günbəzin kənarlarına Quran ayələri yazılıb. 55 metr hündürlüyündə olan baş günbəz, o cümlədən hündürlüyü 35 metr olan ikinci günbəz məscidin daxilinə xüsusi gözəllik verir.



## Qış məktəbinin iştirakçıları Binəqədidə olublar



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə keçirilən "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş-2016" adlı Beynəlxalq Multikulturalizm qış məktəbinin iştirakçıları Binəqədi rayonunda olublar.

Rusiya, İsveçrə, Ukrayna, Türkiyə, İtaliya, Portuqaliya, Polşa, Çexiya, Gürcüstan, Belarus, Bolqarıstan, Litva, İndoneziya, Yaponiya və Almaniyanın ali təhsil ocaqlarından, həmçinin Azərbaycanın yerli universitetlərindən bu layihəyə qatılan qış məktəbi iştirakçıları ilk öncə Binəqədi rayonunda yerləşən Heydər məscidini ziyarət ediblər.

Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında olan qış məktəbinin iştirakçılarına rayonda görülən işlər haqqında ətraflı məlumat verilib. Sonra qış məktəbi iştirakçıları ilə görüş keçirilib. Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini Aygün Əliyeva, Prezident Administrasiyasının əməkdaşı Sərraf Hüseynov, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov və qış məktəbi layihəsinin iştirakçıları iştirak ediblər.

Görüşdə çıxış edən A.Əliyeva və S.Hüseynov bu cür layihələrin önəmini diqqətə çatdırıb və Azərbaycanda milli-mənəvi dəyərlərin, tolerantlıq və dinlərarası münasibətlərin yüksək səviyyədə olduğunu xüsusi qeyd ediblər. Prezident İlham Əliyevin "Multikulturalizmin dünyada alternativi yoxdur. Azərbaycanda multikulturalizm yaşayır və yaşayacaq" fikrini özünə deviz seçən qış məktəbi iştirakçılarına uğurlar arzulanıb.

Tədbirin bədii hissəsi Xəzər Universitetinin kamera orkestrinin çıxışı ilə davam etdirilib. Sonda qonaqlara YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilən Azərbaycan kəlağayısı hədiyyə olunub.

## Binəqədinin din xadimləri Gəncə şəhərində olublar

Fevralın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncəyə səfəri çərçivəsində "İmamzadə" dini kompleksinin açılış mərasimində iştirak edib. Tədbirə Binəqədi rayonundan olan nümayəndə heyəti də qatılıb.



Nümayəndə heyətinin tərkibinə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Rauf Həsənov, "Heydər məscidi"nin imamı Hafiz Abbasov, axundu Rüfət Qarayev, Biləcəri qəsəbə I məhəllə məscidinin imamı Musa İbrahimov və Qafqaz Müsəlmanları İdarəsinin Binəqədi rayonu üzrə nümayəndəsi Şahbala Əliməmmədov daxil olublar. Tədbirdə, həmçinin, dövlət rəsmiləri, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, ölkədə fəaliyyət göstərən müxtəlif dini konfessiyaların rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də iştirak ediblər.

# Xocalı soyqırımı anılıb




Fevralın 25-də Binəqədi Mərkəzi Mədəniyyət Evində Xocalı soyqırımına həsr olunmuş tədbir keçirilib. Tədbirdə Binəqədi rayon icra hakimiyyəti başçısının müavini Vüsar İsmayılov, RİH başçısı Aparatının əməkdaşları, Binəqədi rayon ağsaqqallar şurasının sədri Akif Rəfiyev, Binəqədi Rayon İcra Hakimiyyəti yanında ictimai şuranın sədri Aslan Mehdiyev, icra nümayəndələri, bələdiyyə nümayəndələri, məktəb direktorları və digər şəxslər iştirak ediblər.

Tədbirdən öncə qonaqlar Mərkəzi Mədəniyyət Evinin foyesində şagirdlərin Xocalı soyqırımı ilə bağlı çəkdikləri rəsm sərgisi ilə tanış olublar.

Xocalı faciəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Nümayiş olunan filmdə ermənilərin Azərbaycan xalqına qarşı zaman-zaman törətdikləri vəhşiliklər, soyqırım xronoloji ardıcıllıqla göstərilib. Filmdə həmçinin Xocalı faciəsinin şahidlərinin fikirləri də yer alıb.

Giriş sözü ilə çıxış edən Vüsar İsmayılov Xocalı soyqırımını XX əsrin ən dəhşətli faciəsi kimi qiymətləndirib. O bildirib ki, erməni silahlı dəstələri tərəfindən xalqımıza qarşı törədilən cinayət hadisəsi zamanı dinc əhali xüsusi qəddarlıqla qətlə yetirilib, əsir götürülən insanlar dəhşətli işgəncələrə, zülm və təhqirlərə məruz qalıblar. V.İsmayılov çıxışında Xocalı faciəsinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında, bu faciənin xalqımıza qarşı soyqrımı kimi tanınmasında ümummilli lider Heydər Əliyevin böyük rolu olduğunu diqqətə çatdırıb: "Soyqırımla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət" beynəlxalq təbliğat-təşviqat kampaniyasını xüsusi rolu var. Artıq bir çox dünya dövlətlərində bu hadisələrə düzgün qiymət verilir. İnanırıq ki, ulu öndər Heydər Əliyevin siyasətini uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında tezliklə işğal altında olan torpaqlarımız düşmən tapdağından azad olunacaq".

Xocalı faciəsinin canlı şahidi, Xocalı şəhəri uğrunda gedən qeyri-bərabər döyüşlərdə son damla qanına qədər vuruşaraq qəhrəmancasına həlak olan Ələsgər Novruzovun həyat yoldaşı Şəkibə xanım Mustafayeva faciə ilə bağlı xatirələrindən danışıb. Şəkibə xanım Xocalı faciəsini xalqımızın milli mənliyinə, milli azadlıq ruhuna qarşı törədilən bir təcavüz akti kimi dəyərləndirib. Onun sözlərinə görə, bu hadisə bizim üçün milli matəm və hüzn günündən başqa, həm də Azərbaycan xalqının tarixində bir qəhrəmanlıq səhifəsidir. Milli qəhrəmanın həyat yoldaşı Ələsgər Novruzov haqqında qürur hissi ilə danışıb. Ələsgər həyatından, ailəsindən çox sevdiyi Vətəni uğrunda şəhid olub Əlbəyaxa döyüşdə 10 nəfər ermənini məhv edən Ələsgər Novruzov son nəfəsinə qədər vuruşub. 1997-ci ildə ona Milli Qəhrəman adı verilib.

Tədbirin bədii hissəsində Bakı Humanitar Kollecinin, 26 saylı Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin və 138 saylı körpələr evinin təmsilçilərinin ifasında Xocalıya həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirilib. Əməkdar artist Gülüstan Əliyeva qəhrəmanlıq və vətənpərvərlik mövzusunda mahnılar oxuyub.

# Xocalı faciəsindən 24 il ötür



Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olub. 24 il bundan əvvəl - 1992-ci il fevralın 25-dən 26-na keçən keçə Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində soyqırımı aktı həyata keçirib. Həmin qanlı gecədə erməni hərbi birləşmələrinin hücumu zamanı 613 nəfər öldürülüb, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olub, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirib. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürülüb, onların 150-sinin taleyi indi də məlum deyil. Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən hazırlanmış pusqularda qətlə yetirilib.

Xocalı dəhşətlərini öz gözləri ilə görən, ermənilərin törətdikləri qırğınların canlı şahidlərindən olan Binəqədi rayonu 8-ci mikrorayon sakini, Böyük Vətən müharibəsi, Əmək, Silahlı Qüvvələr və Hüquq Mühafizə Orqanları Veteranları Şurasının rayon şöbəsinin sədri, polis polkovniki Telman Həsənovla söhbətimiz çox ağrılı keçdi. O illəri ürək ağrısı ilə xatırlayan Telman müəllim bildirdi ki, hadisə baş verən ərəfədə Ağdam şəhərində 300 nəfərdən ibarət milis batalyonunun komandiri olub: "Əsgəranla Xankəndi arasında yerləşən bu qəsəbə mühüm strateji əhəmiyyətə malik idi və bu, erməniləri hədsiz narahat edirdi. Onlar bütün imkanlarından istifadə edərək Xocalını susdurmaq istəyirdilər. Hətta bu məqsədlə Xankəndidə yerləşən 366-cı polkun gücündən də istifadə olunurdu. Bununla belə, qəhrəman xocalıların müqavimətini qıra bilmirdilər. Amma 1992-ci ilin ilk ayından başlayaraq, Xocalıda vəziyyət getdikcə ağırlaşmağa başladı. Ağdam-Xocalı yolu bağlı olduğundan biz yerli əhali ilə yalnız hava telefonu vasitəsi ilə əlaqə saxlayırdıq. Həmin vaxt Xocalının yaxınlığındakı bütün azərbaycanlı kəndləri, demək olar ki, işğal olmuşdu. Ratsiyalarda gedən danışıqlardan və yayılan söhbətlərdən hiss olunurdu ki, yaxın günlərdə ermənilər Xocalıya hücum edəcək. Fevral ayının ikinci yarısından sonra ümumiyyətlə Xocalıya gediş-gəliş dayandırıldı. Ara-sıra uçan vertolyotlar da vurulacaqlarından qorxaraq uçuşlarını dayandırdılar. Əhali isə Azərbaycan rəhbərliyinə müraciət edərək kömək istəyirdi. Onlar danışıqlarda artıq şəhərdə ərzağın və silah-sursatın tükəndiyini bildirirdilər".

T.Hətəmov bildirdi ki, həmin vaxtlar Ağdamda fəaliyyət göstərən bir neçə batalyon komandiri xocalılara kömək etmək, əhalini gözlənən təhlükədən xilas etmək üçün xüsusi əməliyyat hazırlamaq qərarına gəldilər: "Məqsədimiz Əsgəran yolunu acıb Xocalıya birləşmək idi. Azərbaycanın o vaxtkı rəhbərliyi xocalıları talenin ümidinə buraxdığı üçün biz öz təşəbbüsmüzlə əhalini xilas etmək qərarına gəldik. Əsgərlər arasında yüksək əh-



val-ruhiyə hökm sürürdü. Amma həmin gün gecə saat 4 radələrində xəbər gəldi ki, hücum təxirə salınıb və növbəti günə keçirilib. Elə bu hadisədən 3-4 gün sonra məlum faciə baş verdi... Fevralın 25-də gecə saatlarında güclü "qırad" səsi hər tərəfi bürüdü. Baxdım ki, 40 lüləli "qrad" qurğusu Əsgəran istiqamətinə atəş açır. Əvvəl-əvvəl nə baş verdiyin anlaya bilmədim. Az keçməmiş məlumat aldıq ki, erməni hərbi birləşmələri 366-cı alayın köməyi ilə Xocalıya hücuma keçib. Bizə Bakıdan göstəriş gəldi ki, mühasirədən çıxıb Ağdama doğru gələn xocalıları xilas etmək lazımdır. Təcili qərar alındı ki, mənim rəhbərlik etdiyim milis batalyonu, Fred Asifin, Allahverdi Bağırovun və Yaqub Rzayevin komandirlik etdiyi batalyonlar Ağdamın Şelli kəndinin Qaraqaya deyilən istiqamətindən Əsgərana doğru hücum etsin. Onu deyim ki, bu əməliyyat nəticəsində xeyli insanı ölümdən xilas edə bildik. Bununla yanaşı xocalıların xilas edilməsində Ağdamın Abdal-Gülablı kəndinin sakinləri də böyük qəhrəmanlıq göstərmişdilər. Bizim əsgərlərin köməkliyi ilə meşələrə gedən kənd sakinləri qarlı havada qalan insanları xilas edərək evlərinə gətirmişdilər. Erməni əlindən qurtulmuş insanların fəryadı bu gün də qulaqlarımdadır".

Xocalı hadisəsi zamanı anası və əkiz uşaqları ilə birlikdə əsir düşmüş Hüseynağa Quluyev bizimlə söhbətində o dəhşətli günləri belə xatırlayır: "Hələ 1992-ci ildə Xocalının müdafiəsi məqsədilə Tofiq Hüseynovun rəhbərlik etdiyi könüllülərdən ibarət 18-ci batalyonda döyüşürdüm. O zaman Aqil Quliyev, Əlif Hacıyevlə birlikdə Xocalı aeroportunu qoruyurduq. Artıq ermənilər həmin ərəfədə şəhəri mühasirəyə almışdılar, qonşu rayonlarla əlaqələrimiz kəsilmişdi. Belə desək, tamamilə mühasirə şəraitinə düşmüşdük və çıxılmaz bir vəziyyət yaranmışdı. ...Fevralın 25-dən 26-na keçən gecə ermənilər 366-cı alayın köməyi ilə şəhərə hücuma keçdilər. Səs-küydən qulaq tutulurdu,



hamı çaş-baş qalmışdı. Qadın, qoca və uşaqların Xocalıda qalması vəziyyəti daha da ağırlaşdırırdı. Həmin mənzərəni təsvir etməyə çətinlik çəkirəm. Tərslikdən həmin gecə təbiət də bizdən üz döndərmişdi. Fevralın 26-na kimi havalar xoş keçirdi, ancaq faciə baş verən gün dizə qədər qar yağmışdı. Bu da körpələrimizi, yaşlı adamları şəhərdən çıxarmaq üçün işimizi əngəlləyirdi. Düşmən ətraf kəndləri də nəzarətə götürmüşdü. Artıq biz Naxcıvanik kəndinə çatanda ermənilər dinc əhalini mühasirəyə almışdı. Dedilər ki, silahlarınızı yerə qoyun. Ancaq mən silahımı yerə qoymadım və geri baxanda gördüm ki, arxada dərə var. Qar yağmışdı deyə, heç nə görmədiyimdən özümü dərəyə atdım. Elə bilirdim ki, dərə çox da dərin olmayacaq. Amma yerdəki qarın çoxluğu hesabına sağ qaldım. Sən demə, üstündən tullandığım qayanın 200 metr hündürlüyü varmış. Həm də qaya maili olduğu üçün ölmədim".

Hüseynağanın sözlərinə görə, adamları xilas edərkən yanında Xocalı sakini Məhəmməd kişi də olub: "Ona dedim ki, çıxma, vuracaqlar. Ancaq sözümə qulaq asmaydı və çıxan kimi gülləyə tuş gəldi. Onun meyitini götürməyə gedən zaman ermənilər BMP-dən mənə atəş açdılar. Yaralandım, yerə yıxıldım, qalxanda yenidən atəş açdılar. Huşum özümə gələndə artıq gec idi. Ermənilər məni Naxçıvanikin yaxınlığındakı donuz fermasına aparmışdılar".

O zaman artıq ölümünü göz önünə gətirən müsahibim deyir ki, xilas üçün ümidi yoxmuş: "İnanmırdım ki, geriyə dönüş var. Çünki erməni cəlladlarının məqsədi də elə bu idi ki, körpə, qoca, cavana baxmayıb, hamını əzabla, işgəncə ilə öldürsünlər. Məni donuz fermasında vəhşicəsinə döydülər. Əynimdə OMON forması var idi, halbuki könüllü döyüşçü idim. Bir də gözümü açanda artıq səhər idi. Məni necə döymüşdülərsə, bunu hiss etməmişdim. Sonra məni tonqala da atmışdılar, bütün paltarlarım, əlim, ayaqlarım yanmışdı». Hüseynağa vurğulayır ki, ermənilər əsirlərə əzab verməkdən həzz alırdılar. Onların etdikləri ağlasığmaz idi, dünyanın heç bir yerində istifadə olunmayan işgəncə növləri ermənilərin ağlına gəlirdi. Əllərinə daş götürüb sifətimə çırpırdılar, özümdən gedənəcən döyürdülər, buzun üstə qoyurdular, ayılanda işgəncələr yenə başlayırdı: "İnsanın diri-diri sinəsini yarmaq, armaturu ağzından salıb boynundan çıxarmaq ermənilərdən ötrü adi işgəncə üsulu idi"...

# Məktəblilərin "Memorial Soyqırımı Muzeyi"nə ekskursiyası



Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 9 fevral 2016-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Xocalı soyqırımının iyirmi dördüncü ildönümünün keçirilməsinə dair tədbirlər planı"nın icrası ilə bağlı yeniyetmə və gənclərin vətənə məhəbbət, Azərbaycan xalqının tarixinə hörmət ruhunda tərbiyə olunması və gələcək nəsillərin qan yaddaşının möhkəmləndirilməsi məqsədilə rayon orta ümumtəhsil məktəblərinin şagirdlərinin Azərbaycan Respublikasının Hərbi Prokurorluğunun "Memorial Soyqırımı Muzeyi"nə ekskursiyaları təşkil olunub.

Təsdiq edilmiş qrafikə uyğun olaraq, artıq 30, 115, 144, 157, 267, 179, 182 və 205, 284, 298 və 299 №li tam orta məktəblərin şagirdləri muzeyi ziyarət ediblər.

Dörd bölmədən: tarix, deportasiya-repressiya, soyqırımı və terror bölməsindən ibarət olmaqla cəmi 320 kvadratmetr sahədə yerləşən muzeyin girişində Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar 2012-ci ilin fevralın 26-da Prezident İlham Əliyevin rəhbərliyi altında 100 mindən artıq insanın Xətai rayonu ərazisində yerləşən «Ana harayı» abidəsinə keçirilmiş yürüşün iri həcmli fotoşəkli yerləşdirilib.

Muzey xalqımıza qarşı törədilmiş soyqırımı, deportasiya, hərbi cinayətlər barədə xarici və Azərbaycan müəlliflərinin kitablarından ibarət zəngin kitab fondu ilə təchiz olunub. Burada, həmçinin, qətlə yetirilmiş ailələrin, o cümlədən qadınların, qocaların, uşaqların fotoşəkilləri və əşyaları, erməni terrorunu özündə əks etdirən partlayıcı qurğuların, güllə başlıqlarının hadisə yerindən götürülmüş nümunələri də nümayiş etdirilir. Bütün bölmələrdə məlumat mərkəzi quraşdırılıb.

Muzeyin əməkdaşı tərəfindən məktəblilərə ətraflı məlumat verilib. Sonra şagirdlər muzeyin akt zalında ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əsgərlərlə görüşündən və Milli Qəhrəman Mübariz İbrahimovdan bəhs edən videoçarxa baxıblar.

# "Müharibə uşaqların gözü ilə"



Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 9 fevral 2016-cı il tarixli 26 saylı sərəncamı ilə təsdiq edilmiş "Xocalı soyqırımının iyirmi dördüncü ildönümünün keçirilməsinə dair tədbirlər planı"nın icrası ilə bağlı Binəqədi Rayon İcra Hakimiyyətinin dəstəyi, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatı, Binəqədi rayon Gənclər və İdman İdarəsi və Bakı Humanitar Kollecinin birgə təşkilatçılığı ilə 100 №li tam orta məktəbdə Binəqədi rayon orta ümumtəhsil məktəblərinin şagirdləri arasında 26 Fevral-Xocalı Soyqırımının yad edilməsi, böyüməkdə olan gənc nəslin nümayəndələrinə doğma vətənə sevgi, məhəbbət hisslərinin aşılanması, onlar arasında milli vətənpərvərlik ruhunun təbliğ olunması, istedadlı şagirdlərin inşa yazı sahəsində öz yaradıcılıqlarını nümayiş etdirmələri üçün şəraitin yaradılması məqsədilə "Müharibə uşaqların gözü ilə" mövzusunda inşa yazı müsabiqəsi keçirilib.

Müsabiqədə 65 nəfər şagird iştirak edib. Müsabiqənin nəticəsinə görə, 99 №li tam orta məktəbin 9ç sinif şagirdi Zəhra Həsənova birinci olub. 3 №li tam orta məktəbin 10c sinif şagirdi Günel Cəlilova və 115 № li tam orta məktəbin 10b sinif şagirdi Lamiyə Rəhimli isə müvafiq olaraq 2-3-cü yeri tutub.

Gülhava Əhmədova (99 №li məktəb, 10 d), Ləman Abulzadə (100 №li məktəb, 8a), Kəmalə Zeynallı (100 №li məktəb, 9b), Günəş Əliyeva (284 №li məktəb, 9a) və Ayan Şamcıyeva (3 №li məktəb, 10c) fərqlənmə diplomu ilə təltif olunub.

## "Birgə yaradaq" layihəsinə sahibkarlar da qoşulur




Binəqədi Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə həyata keçirilən "Birgə yaradaq" layihəsinin uğurları günü-gündən artır. Hətta ayrı-ayrı xidməti ərazilərdə sahibkarlıq fəaliyyəti göstərən insanlar da layihəyə qoşularaq, rayonumuzun çiçəklənməsi və inkişafına öz töhvələrini verirlər.

Bu günlərdə 92 saylı MKİS-in xidməti ərazisində, A.Məmmədov 119 ünvanında fəaliyyət göstərən sahibkarlar öz fərdi təşəbbüsləri ilə adı çəkilən ünvandakı yaşayış binasında aparılan təmir-bərpa işlərinə yaxından dəstək olublar. Təşəbbüskar sahibkarlar yaşayış binasının 4-cü və 5-ci girişlərində aparılan təmir-bərpa işlərində yaxından iştirak edib və maddi köməkliklərini əsirgəməyiblər. Bununla yanaşı, rayon sakinləri də adı çəkilən layihənin icrasında həmrəylik nümayiş etdirirlər. Əhali arasında aparılan maarifləndirmə işlərinin nəticəsidir ki, bu gün vətəndaşlarımız davamlı olaraq aparılan təmizlik işlərində yaxından iştirak edirlər. Sakinlər park və xiyabanlarda quraşdırılmış oturacaqların rənglənməsində, ağacların budanmasında bu sahəyə məsul olan qurumların əməkdaşlarına köməklik göstərirlər. Bu günlərdə isə sakinlərin iştirakı ilə 9-cu mikrorayon ərazisində yerləşən H.Babaşov küçəsi boyu və "Heydər Məscidi" ətrafında proflaktik təmizlik tədbirləri həyata keçirilib. Əlavə edək ki, layihənin icrası ilə əlaqədar rayon ərazisində yerləşən qəsəbələrdə də abadlıq işləri davam etdirilir.

"Birgə yaradaq" layihəsi çərçivəsində M.Ə.Rəsulzadə qəsəbəsində görülən işlər xüsusilə təqdirəlayiqdir. Qəsəbə bələdiyyəsindən verilən məlumata görə, son aylar layihədə yaxından iştirak edən vətəndaşların köməkliyi ilə bir sıra problemlər yoluna qoyulub.

# Ana dilini qorumaq – millətin gələcəyini qorumaq qədər vacibdir

## 21 Fevral – Beynəlxalq Ana Dili günü münasibətilə Binəqədi rayonunun ümumtəhsil və məktəbəqədər təlim-tərbiyə müəssisələrində silsilə tədbirlər keçirilib

Fevralın 19-da 283 saylı tam orta məktəbdə "Ana dilim - varlığım mənim" adlı təşkil olunan tədbirdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Leyla Kərimova, AMEA-nın üzvü, filologiya elmləri doktoru Mayıl Əsgərov, AMEA-nın üzvü, filologiya elmləri doktoru Gülrux Həsənova, AMEA-nın üzvü, filologiya elmləri doktoru Gülsüm Hüseynova, AMEA-nın əməkdaşı, fəlsəfə doktoru Elvüsal Məmmədov, Azərbaycan Respublikası Təhsil Nazirliyinin əməkdaşı, pedaqogika üzrə fəlsəfə doktoru Afət Süleymanova, Azərbaycan Respublikası Təhsil Nazirliyinin əməkdaşı Tofiq Sadıqov, Bakı şəhəri üzrə Təhsil İdarəsinin Metod Mərkəzinin direktoru Vahid Qurbanov, 283 saylı tam orta məktəbin direktoru Tünzalə Zeynalova, Binəqədi RİH-də təcrübə keçən "ASAN könüllü" Hüseyn Quluzadə və məktəbin şagird və müəllim kollektivi iştirak edib.



Tədbirdə çıxış edənlər qeyd ediblər ki, respublikamızda ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması ulu öndər Heydər Əliyevin düşünülmüş siyasəti nəticəsində mümkün olub. Dünyada məhv olmaq təhlükəsi ilə üzləşən dillərin qorunması məqsədilə hər il keçirilən Beynəlxalq Ana Dili günü hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır.

Fevralın 20-də 138 saylı uşaq bağçasında da Beynəlxalq Ana Dili gününə həsr edilmiş tədbir keçirilib. Çıxış edənlər ana dilimizin zənginliyi, tarixi haqqında danışıblar. Vurğulanıb ki, xalqları dil qədər, milli-mənəvi ənənələr qədər, dəyərlər qədər birləşdirən başqa bir vasitə yoxdur. Biz bu vasitədən daim istifadə etməliyik. Azərbaycanlıları birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir, milli mədəniyyətimizdir, şeirlərimiz, mahnılarımız, incəsənətimiz, xalqımıza mənsub olan adət-ənənələrimizdir. Bütün bunların uşaqlarımıza aşılanması olduqca əhəmiyyətlidir.

Fevralın 22-də 115 saylı tam orta məktəbdə təşkil olunan anoloji tədbirdə məktəbin müəllim və şagird kollektivi ilə yanaşı, Binəqədi Rayon İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Ramiz Göyüşov, Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi, filologiya elmləri doktoru Elçin Məmmədov da iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin ana dilimiz haqqında dəyərli fikirlərini əks etdirən videoçarx nümayiş olunub. Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Məsud Babayev bu günün əhəmiyyətindən danışaraq dilin hər bir millətin formalaşması və tarixi inkişafı yolunda mühüm amil olduğunu bildirib. Ramiz Göyüşov çıxışında deyib ki, məhz bu kimi tədbirlər vasitəsilə insanlara öz doğma dilini daha çox sevmək və onu qorumağın zəruriliyi aşılanır. Dil hər bir millətin qürur yeridir. Respublikamızda ədəbi dilin qorunması, zənginləşdirilməsi istiqamətində bir sıra məqsədyönlü tədbirlərin görülməsi diqqətə çatdırılıb.

Beynəlxalq Ana Dili günü ilə bağlı təşkil olunan tədbirlərdə şagirdlər ana dili ilə bağlı şeirlər səsləndirib, mahnı oxuyub, müxtəlif səhnəciklər göstəriblər.

## Etik davranış qaydaları mövzusunda təlim



Fevralın 16-da Binəqədi rayon və Rəsulzadə bələdiyyələrinin təşəbbüsü ilə "Bələdiyyə qulluqçularının etik davranış qaydaları" mövzusunda təlim keçirilib.

Beynəlxalq Alman Əməkdaşlıq Təşkilatı (GİZ) ilə birlikdə təşkil edilən təlim kursunda hər iki bələdiyyənin üzvləri və bələdiyyə qulluqçuları iştirak ediblər. Təlim çərçivəsində sakinlərlə münasibətlərin qurulmasında, vətəndaş qəbulunun həyata keçirilməsi prosesində yaranan mövcud qaydalara əməl edilməsi haqqında geniş məlumat verilib.

# Yaradıcılıq müsabiqəsinin qalibləri ilə görüş

Binəqədi Rayon Gənclər və İdman İdarəsi və Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının təşəbbüsü ilə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun VII qrant müsabiqəsinin qalibi, Əmək və Sosial Münasibətlər Akademiyasının iqtisadiyyat fakültəsinin 4-cü kurs tələbəsi Radim Hüseynlinin "Yeni kəşf olunmuş oyunlar – Yaradıcılıq müsabiqəsi" adlı fərdi layihəsinin açılış mərasimi keçirilib. Tədbirdə Akademiyanın tədris işləri üzrə prorektoru, biologiya üzrə fəlsəfə doktoru Sirac Məmmədov, Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Elvin Orucov, həmçinin tələbə-gənclər iştirak ediblər.



Layihənin rəhbəri Radim Hüseynli tədbiri giriş sözü ilə açaraq iştirakçıları salamlayıb və layihə haqqında geniş məlumat verib. Çıxış edənlər Gənclər Fondunun fəaliyyətinin ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinin əsas tərkib hissəsindən biri olduğunu deyiblər.

Sonra layihəyə təqdim olunan yeni oyunların müəllifləri təqdimatla çıxış edərək, tədbir iştirakçılarını məlumatlandırıblar. Oyunlar iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında daha bir tədbir - Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun VII qrant müsabiqəsinin qalibi, rayonun fəal gənci Qartal Budaqlının "Özünü inkişaf etdir" adlı fərdi layihəsinin açılışı olub. Tədbirdə Binəqədi Rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Elvin Orucov, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı Gənclər Birliyinin sədri Mahmud Məmmədzadə, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tələbə Gənclər Təşkilatının sədri Anar Əliyev və tələbə-gənclər iştirak ediblər.

Layihənin rəhbəri Qartal Budaqlı layihə haqqında ətraflı məlumat verdikdən sonra çıxış edənlər onu qrant müsabiqəsinin qalibi olması münasibətilə təbrik edərək gələcək fəaliyyətində uğurlar diləyiblər, Gənclər Fondunun fəaliyyəti, o cümlədən gənclərin fərdi layihələrinin maliyyələşdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Sonra təlimçi Mahmud Mahmudov CV-nin yazılması, müsahibənin keçirilməsi qaydalarından bəhs edən təqdimatla çıxış edib. Təlim gənclərin sualları ətrafında diskussiya və praktiki təlimlə davam etdirilib. Layihə çərçivəsində 50 nəfər iştirakçı sertifikatla təmin olunacaq.

Binəqədi Rayon İcra Hakimiyyətinin
Sakinlərin Müraciət Xidməti




Sizin zənginiz bizim üçün çox əhəmiyyətlidir!
www.binegedi-ih.gov.az

## Azərbaycan çempionatında 9 medal



Fevralın 15-18-də Bakı İdman Sarayında kikboksinq üzrə Azərbaycan çempionatı və kadetlər arasında "Narkomaniya və uşaq cinayətkarlığına qarşı" adı altında ölkə birinciliyi keçirilib. Yarışlarda respublikamızın bütün regionlarından olan komandaların 600-dən çox idmançısı iştirak edib.

Çempionatda Binəqədi rayonunu "Lokomotiv" İdman Sağlamlıq Mərkəzi Biləcəri Sarayının 18 idmançısı təmsil edib. Rayon idmançıları ümumilikdə komanda hesabında 3 gümüş, 6 bürünc medal qazanıblar. İbrahim Səfərov (45 kq), Mühəmmədağa İsgəndərov (48 kq), Anar Ağazadə (57 kq) gümüş, Azad Gündüzlü (24 kq), Nicat İmamverdiyev (31 kq), Əsgər Quliyev (36 kq), Ümid Umudov (42 kq), Turan Abdullayev və Zaur Səbzəliyev (hər ikisi 54 kq) isə bürünc medallara sahib olublar.

## Basketbol üzrə rayon birinciliyi

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 29 sentyabr 2015-ci il tarixli 181 nömrəli sərəncamına əsasən, Binəqədi rayon orta ümumtəhsil məktəblərində bədən tərbiyəsi və idmanı təbliğ və inkişaf etdirmək, məktəbliləri idmanla fəal məşğul olmağa cəlb etmək, həmçinin istedadlı yeniyetmə və gəncləri aşkar etmək məqsədilə ayrı-ayrı idman növləri üzrə silsilə tədbirlər təşkil olunur.

Bu günlərdə 248 №-li tam orta məktəbdə 2015-2016-cı tədris ili ərzində keçirilməsi nəzərdə tutulan Binəqədi rayon məktəblilərinin XXVIII spartakiadasının proqramına daxil olan basketbol üzrə rayon birinciliyi keçirilib. Qızlar arasında təşkil olunan birincilikdə 244 №-li tam orta məktəbin komandası fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. 83 №-li məktəb-liseyin komandası II, 115 №-li tam orta məktəbin komandası isə III yerə layiq görülüb.

